

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü**




4

SƏS
№ 243 (7168)
30 dekabr 2024-cü il.
Qiymətı 60 qəpik

# "Biz öz tələblərimizi açıq şəkildə Rusiya tərəfinə bildirmişik"



2

# Əlvida 2024, xoş gəlirsən, 2025!




4

## Dünya Yeni ili necə qarşılayır?



14

## Sahibkarlığın inkişafına dövlət dəstəyi



12

## Yurd yerlərinə qalib xalq kimi qayıdırıq!



7

## İctimai və dövlət maraqlarının müdafiəsi vacibdir



13

## "Napoli" Ronaldonun həmyerlisinə qapını göstərdi




16

# “Biz öz tələblərimizi açıq şəkildə Rusiya tərəfinə bildirmişik”



## Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 29-da Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Televiziyasına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.***

Jurnalist: Salam cənab Prezident.
Prezident İlham Əliyev: Salam.

Jurnalist: Təəssüf ki, ötən günlərdə bizi dərindən sarsıdan hadisə baş verdi. Dekabrın 25-də Bakı-Qroznı istiqaməti üzrə marşrutu yerinə yetirən AZAL-a məxsus təyyarənin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması və bundan sonra hadisələrin inkişafı ilə bağlı fikirlərinizi bilmək istərdik.

Prezident İlham Əliyev: Mən bu barədə Sankt-Peterburqa MDB Zirvə görüşünə uçarkən məlumat aldım, məlumatlandırıldım, dərhal göstəriş verdim və təyyarə geri - Bakıya döndü. Bakıya gələn kimi burada hava limanında operativ müşavirə keçirdim. Hələ Bakıya qayıdarkən mənim göstərişimlə Dövlət Komissiyası yaradılmışdır və müvafiq qurumların nümayəndələrindən ibarət heyət Aktau şəhərinə dərhal ezam edilmişdir. Çünki onlar dərhal işə başlamalı idilər. İlk növbədə, təyyarənin qalıqlarının vəziyyəti ilə tanış olmalı idilər, yerində müşahidə aparmalı idilər, video və fotomateriallar əldə etməli və onları ictimaiyyətə təqdim etməli idilər.

Eyni zamanda, Azərbaycan həkimlərindən ibarət qrup ezam edilmişdi. Baxmayaraq ki, Qazaxıstan tərəfi yaralıları sağaltmaq və onlara tibbi xidmət göstərmək üçün əlindən gələni əsirgəmirdi. Eyni zamanda, mənim göstərişimlə Azərbaycan Baş Prokurorluğu cinayət işi açmışdır və bilirəm ki, həm Qazaxıstanda, həm Rusiyada oxşar addımlar atılmışdır.

Təbii olaraq ilkin versiyalar üzərində iş başladı. Əlbəttə, son versiya “qara qutu”lar açılandan sonra bəlli olacaq. Ancaq ilkin versiyalar da kifayət qədər əsaslıdır və faktlara söykənir. Faktlar isə ondan ibarətdir ki, Azərbaycanın mülki təyyarəsi Rusiya ərazisində, Qroznı şəhərinin yaxınlığında xaricdən zədə almış və idarəetməni demək olar ki, itirmişdir. Onu da bilirik ki, təyyarəmiz radioelektron mübarizə vasitələri tərəfindən idarəolunmaz vəziyyətə salınmışdır. Bu, təyyarəyə yetirilən birinci xətərdir. Eyni zamanda, yerdən açılan atəş nəticəsində təyyarənin quyruq hissəsi də böyük dərəcədə zədələnmişdir və dərhal, elə həmin gün bizim heyətimiz Aktau şəhərində artıq o videomaterialları təşkil edəndə ictimaiyyət də bu məsələ ilə məlumatlandırıldı. Füzelyajın dəlik-deşik olması, əlbəttə, göstərir ki, bilmirəm, ilkin olaraq kimin tərəfindən atılmış quş versiyası tamamilə gündəlikdən çıxarıldı. Ola bilər ki, təyyarə zədə alanda, zərbə alanda pilot bunu quşların təyyarə ilə toqquşması kimi qəbul edə bilərdi. Çünki yəqin ki, heç kimin ağlına gələ bilməzdi ki, bizim üçün dost olan ölkədə bizim təyyarəyə yerdən atəş açılsın. Ancaq təəssüflər olsun ki, Rusiyanın bəzi dairələri bu versiya üzərində dayanmağa üstünlük vermişdilər. Bizi təəssüfləndirən və təəccübləndirən məqamlardan biri də o idi ki, Rusiyanın rəsmi qurumları hansısa qaz balonunun partlaması ilə bağlı versiyalar irəli sürmüşdü. Yəni, bu, açıq-aydın göstərirdi ki, Rusiya tərəfi məsələni ört-basdır etmək istəyir və əlbəttə, bu, heç kimə başucalığı gətirmir. Təbiidir ki, təyyarəmiz təsadüfən vuruldu. Təbiidir ki, burada hər hansı bir qəsdən terror aktı törətmək məsələsindən söhbət gedə bilməz. Ona görə öz günahını etiraf etmək, dost ölkə sayılan Azərbaycandan vaxtında üzr istəmək və bunu ictimaiyyətə bildirmək - bütün bunlar görüləsi tədbirlər idi və addımlar idi. Əfsuslar olsun ki, birinci üç gün ərzində biz Rusiyadan cəfəng versiyalardan başqa heç nə eşitməmişik.

Təbii ki, qəzanın təfərrüatları tam araşdırılacaq. Bundan mənim şübhəm yoxdur. Onu da bildirməliyəm ki, Azərbaycan ilk gündən beynəlxalq ekspertlərdən ibarət qrupun bu işlə məşğul olmasının tərəfdarı idi. Rusiya tərəfi rəsmi qaydada bizə təklif etmişdi ki, Dövlətlərarası Aviasiya Komitəsi bu işi araşdırsın. Biz isə qəti şəkildə bundan imtina etdik. Səbəb də aydındır. Çünki sirr deyil ki, bu qurum daha çox Rusiya məmurlarından ibarətdir və qurumun başında Rusiya vətəndaşları dayanır. Burada obyektivlik amilləri tam təmin edilməyə bilərdi. Əgər qəza baş verəndən dərhal sonra biz Rusiya tərəfindən ədalətli və adekvat addımlar görsəydik, bəlkə də buna etiraz etməzdik. Amma biz gördük ki, burada məsələni ört-basdır etmək cəhdləri göz qabağındadır.

Ona görə biz həm Qazaxıstan tərəfi ilə sıx təmasda olarkən bu mövqeyimizi bildirdik, həm də Rusiya tərəfinə mövqeyimizi bildirdik ki, ancaq beynəlxalq ekspertlərdən ibarət işçi qrup yaradılmalıdır və yaradılmışdır. Orada təyyarənin istehsalçı şirkəti – “Embraer”in nümayəndələri, Braziliyanın müvafiq qurumlarının nümayəndələri, Azərbaycan, Qazaxıstan və Rusiyanın, o cümlədən Dövlətlərarası Aviasiya Komitəsinin nümayəndələri də var. Ancaq aparıcı rollarda yox, sadəcə olaraq, işçi qrupun tərkibində olan üzvlər kimi. Yenə də deyirəm, “qara qutu”lar açılandan sonra və daha detallı məlumat əldə etdiyimiz halda məsələnin tam təfərrüatları üzə çıxacaq və bu gün hələ ki, sual kimi qalan bir çox məsələlərə aydınlıq gətiriləcək. Məsələn, təyyarə nə üçün Qroznı şəhərinə enə bilmədi? Radioelektron mübarizənin təsiri nə dərəcədə təyyarənin idarə olunmasına təsir göstərmişdir? Havada endirilən zərbə və təyyarənin yanında olan partlayışın nəticələri nə dərəcədə təsirli oldu? Çünki onu da bildirməliyəm ki, bu, açıq-aydın faktı inkar etmək və burada gözdən pərdə asmaq cəhdləri həm cəfəngiyyatdır, həm də ağılsızlıqdır. Çünki xoşbəxtlikdən ekipajın qəhrəmanlığı sayəsində elə hadisə baş verdi ki, təyyarə enə bildi, qəza enişi olsa da, təyyarə enə bildi. Sərnişinlərin bir çoxu xilas edildi, onların ifadələri var. Təyyarəni deşən qəlpələrin sərnişinlərə və ekipaj üzvlərinə yetirdiyi xəsarət göz qabağındadır. Bunu hansısa quşlarla bağlamaq, yaxud da ki, qaz balonunun partlaması kimi qələmə vermək həm ağılsızlıqdır, həm də vicdansızlıqdır.

Ona görə də “qara qutu”lar açılandan sonra bilinəcək ki, nə üçün təyyarə enə bilməyib? Dəqiq nə vaxt təyyarəyə yerdən atəş açılıb? Nə üçün yaxında olan hava limanlarına təyyarə eniş cəhdi etməyib, daha yaxın Minvod və Mahaçqala hava limanları idi. Təyyarə Aktauya göndərildimi, yoxsa bu, obyektiv seçim idi? Müxtəlif fərziyyələr var. Bəziləri hesab edir ki, təyyarə biləərkdən yerdəki xidmət tərəfindən, Qroznı tərəfindən göndərildi ki, çünki təyyarə artıq idarəolunmaz vəziyyətdə idi və ehtimal böyük idi ki, təyyarə dənizə düşəcək. Belə olan halda, ört-basdır cəhdləri uğurla nəticələnəcək və dırnaqarası quş versiyası əsas versiya kimi təqdim ediləcək. Bəzi mütəxəssislərin fikirlərinə görə, Aktau ona görə seçilmişdir ki, orada açıq məkandır və yaşayış yerləri hava limanından uzaqdır və təyyarə ekipajı fərz edə bilərdi ki, bu, qəza enişi olacaq və bunun üçün daha uyğun yer seçmişdi. Ancaq digər tərəfdən, yaxın hava limanları olan halda, təyyarə idarəolunmaz vəziyyətdə olan halda daha uzaq məsafəyə, özü də dənizin üzərindən uçmaq daha riskli idi. Yəni, bütün bu suallara hələ ki, cavab yoxdur. Biz Azərbaycan tərəfi və şəxsən mən maksimum ədalətli olmağa çalışırıq. Biz hansısa tam aydın olmayan məsələləri, bu məsələlər aydınlaşmadan bu barədə fikir söyləmək istəmirik. Ancaq açıq-aydın olan məsələlərdə biz tam qətiyyətlə öz fikrimizi deməliyik, deyirik və deyəcəyik. Mən qəza baş verən gün burada - hava limanında öz çıxışımda söylədim ki, Azərbaycan ictimaiyyəti müntəzəm olaraq bu məsələ ilə, bu istintaqın gedişatı ilə bağlı məlumatlandırılacaq və məlumatlandırılır.

**-Cənab Prezident, bəs təyyarə ekipajının fəaliyyətini necə qiymətləndirirsiniz?**

-Çox yüksək. Bu gün mən vida mərasimində iştirak etdim, həlak olan ekipaj üzvlərinin yaxınlarına başsağlığı verdim. Bu gün ekipaj üzvlərinin təltifi ilə bağlı mənim Sərəncamım olacaq. Mən onların fəaliyyətini, peşəkarlığını, fədakarlığını çox yüksək qiymətləndirirəm. Pilotlar və bütün ekipaj böyük qəhrəmanlıq göstərdilər. Pilotlar həm peşəkarlıq, həm qəhrəmanlıq göstərmişlər ki, idarəedilməz vəziyyətdə olan təyyarəni müxtəlif üsullarla idarə edirdilər. Baxmayaraq, təbii ki, pilotlar təcrübəli pilotlar idi və bilirdilər ki, onlar bu qəza enişindən sağ çıxa bilməyəcəklər. Ancaq sərnişinləri xilas etmək üçün onlar maksimum böyük qəhrəmanlıq göstərmişlər və məhz bunun nəticəsində təyyarə qəzasında sağ qalanlar var. Məhz bunun nəticəsində füzelyajın bir hissəsi yanmayıb və məhz bunun nəticəsində bu gün biz tam açıq-aydın deyə bilərik ki, təyyarə Rusiya tərəfindən vuruldu. Bax bu, faktdır və bu faktı heç kim dana bilməz. Yenə də biz demirik ki, bu, qəsdən edildi, amma bu, edildi.

***Ardı Səh. 3***

## Prezident İlham Əliyev qəzaya uğrayan təyyarənin ekipaj üzvlərini təltif edib

Prezident İlham Əliyev “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinə məxsus “Embraer 190” tipli sərnişin təyyarəsi Bakı–Qroznı (Rusiya Federasiyası) reysini yerinə yetirərkən baş vermiş qəza zamanı yüksək peşəkarlıq və şücaət göstərmiş şəxslərin təltif edilməsi haqqında sərəncam imzalayıb.

Trend xəbər verir ki, sərəncama əsasən, “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinə məxsus “Embraer 190” tipli sərnişin təyyarəsi Bakı–Qroznı (Rusiya Federasiyası) reysini həyata keçirərkən baş vermiş qəza zamanı xidməti vəzifələrinin yerinə yetirilməsində, sərnişinlərin həyatının xilas edilməsində yüksək peşəkarlıq, şücaət və fədakarlıq göstərdiklərinə görə aşağıdakı şəxslər təltif ediliblər:

**1-ci dərəcəli “Rəşadət” ordeni ilə:**
Əsədov Zülfiqar Sərdar oğlu
Rəhimli Aydan Vaqif qızı.

* * *

**“Azərbaycanın Milli Qəhrəmanı” adı ilə:**
Kşnyakin İqor İvanoviç (ölümündən sonra)
Kalyaninov Aleksandr Georgiyeviç (ölümündən sonra)
Əliyeva Hökumə Cəlil qızı (ölümündən sonra)

# "Biz öz tələblərimizi açıq şəkildə Rusiya tərəfinə bildirmişik"

**Əvvəli-Səh-2**

Pilotlar və ekipaj üzvləri - onlar həm peşəkarlıq, həm soyuqqanlılıq göstərmişlər. Xüsusilə mən qadın ekipaj üzvlərini qiymətləndirməliyəm. Onlar özləri stres vəziyyətində idi. Ancaq sərnişinləri sakitləşdirmək, təyyarənin içində xaos vəziyyəti yaratmamaq üçün görün, onlar nə qədər böyük insani davranış göstərmişlər. Onların fəaliyyəti, yenə də deyirəm, Azərbaycan dövləti tərəfindən layiqincə qiymətləndiriləcək. Allah ölən ekipaj üzvlərinə və bütün həlak olanlara rəhmət eləsin və biz sağ qalanlara Allahdan şəfa diləyirik. Sağ qalanların böyük hissəsi artıq Bakıdadır. Onlar Qazaxıstanda dərhal müalicə almışlar. Bəziləri hələ ki, müalicə alır və imkan olan kimi onlar da Azərbaycana təxliyə ediləcəklər.

**-Cənab Prezident, Siz Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə zəng etdiniz. Müzakirə olunan məsələlər barədə fikrinizi bilmək istərdik. Ümumiyyətlə, məsələ ilə bağlı birgə fəaliyyət aparan Azərbaycan və Qazaxıstan hökumətləri rəsmilərinin bu birgə fəaliyyətini necə qiymətləndirirsiniz?**

-Bəli, mən, ilk növbədə, Prezident Tokayevə minnətdarlığımı ifadə etmək üçün zəng etdim. Çünki biz bilirdik və məlumat əldə etmişdik ki, qəza baş verən kimi Qazaxıstan xilasedicilәri dərhal hadisə yerinə yetişdilər və insanları o dağılmış füzelyajdan çıxartmağa başlamışdılar. Öz həyatlarını risk altına atmışdılar. Çünki onlar bilmirdilər ki, növbəti partlayış olacaq, yoxsa yox. Çünki təyyarənin bir hissəsi yanmışdı və bu hissə də yana bilərdi. Amma buna baxmayaraq, onlar da əsl qəhrəmanlıq göstərmişdilər. Eyni zamanda, həkim personalının fəaliyyəti də çox qiymətli idi. Çünki yaralı sərnişinlər dərhal tibb məntəqələrinə aparıldılar və buna görə də Prezident Tokayevə mən təşəkkürümü bildirdim. Qazaxıstanlı qardaşlarımızın, bacılarımızın həmrəylik nümayişi də mən bilirəm ki, Azərbaycan xalqının qəlbində çox böyük iz buraxmışdır. Adi vətəndaşlar bizim Aktaudakı konsulluğa gələrək gül qoydular, öz münasibətlərini bildirdilər, bizimlə həmrəy olduqlarını bildirdilər. Əsl dostluq, qardaşlıq belə olar. Eyni zamanda, mən Prezident Tokayevlə söhbət zamanı Azərbaycanın istintaqla bağlı mövqeyini də bildirdim və bax, sizə dediyim məsələləri də onun diqqətinə çatdırdım ki, biz beynəlxalq ekspertizanın tərəfdarıyıq və heç cür bu məsələni Dövlətlərarası Aviasiya Komitəsinin sərəncamına verə bilmərik. Bu mövqe də anlayışla qarşılandı. Təbii olaraq, bizim dövlət qurumlarımızın nümayəndələri, komissiyanın üzvləri və rəhbərləri, prokurorluq orqanlarının nümayəndələri daim təmasdadırlar. Qazaxıstan da öz növbəsində Dövlət komissiyası yaratmışdır və Prezident Tokayev söhbət zamanı bu barədə mənə məlumat vermişdi. Onlar da təbii olaraq istəyirlər və çalışırlar ki, məsələ tam təfərrüatları ilə açılsın. Eyni zamanda, mən Prezident Tokayevə də başsağlığı verdim, çünki qəza nəticəsində altı Qazaxıstan vətəndaşı həlak olmuşdu. O da mənə başsağlığı vermişdi. Yəni, bu nə qədər ağır hadisə olsa belə, eyni zamanda, bir sınaq məsələsi idi. Yəni, bu sınaqdan kim necə çıxacaq? Mən şadam ki, yenə də bu faciəyə baxmayaraq, görürəm və əminəm ki, Qazaxıstanda da eyni fikirdədirlər. Bizim dostluğumuz, qardaşlığımız bu ağır vəziyyətdən sonra daha da gücləndi.

**-Qəzadan sonra AZAL şirkəti Rusiyanın bəzi şəhərlərinə uçuşları dayandırdı. Bəs, bu qərarın verilməsi hansı zərurətdən irəli gəldi və hazırda işlər necə gedir?**

-Bu göstərişi mən vermişəm və bunun əsas səbəbi təbii ki, təhlükəsizlik məsələləridir. Çünki Rusiyanın bir çox şəhərlərində vaxtaşırı hava məkanı bağlanır, orada xüsusi əməliyyat rejimi tətbiq edilir. Onlar buna "kavyor əməliyyatı" deyirlər və birinci sualda dediyim məsələlərə qayıdarkən onu da bildirməliyəm. Bir şeyin də üstü açılmalıdır ki, o "kavyor əməliyyatı" nə vaxt elan edildi? Çünki bizdə olan məlumata görə, artıq təyyarəmiz xarici təsirə məruz qaldıqdan sonra o "kavyor əməliyyatı" elan edilmişdi. Yəni, əgər bu belədirsə, bir daha göstərir ki, yerli xidmətlər bu məsələni ört-basdır etmək üçün etdilər.

AZAL-ın uçuşlarına gəldikdə, AZAL Rusiyanın yeddi şəhərinə öz uçuşlarını dayandırdı, müddətsiz olaraq. Eyni zamanda, biz Rusiya aviaşirkətlərinin üç Rusiya şəhərindən Azərbaycana uçuşlarını da dayandırmışıq. Deməli, toplam 10 şəhərlə bizim hava bağlantımız indi dayandırılıb və yenə də deyirəm, burada, ilk növbədə, təhlükəsizlik məsələləri ön plandadır. Biz sərnişinlərimizin təhlükəsizliyini həmişə ön sırada olan məsələ kimi qəbul etmişik və beləliklə, bu vəziyyət elan edildi. Biz nəyi ediriksə açıq-aydın edirik və yenə də deyirəm, bu qərar qəbul edildi və nə vaxt bu uçuşlar bərpa ediləcək, yoxsa yox, xüsusilə Qrozni şəhərinə bərpa ediləcək, yoxsa yox? Çox güman ki, yox. Amma bunu həyat göstərər və Rusiya hava məkanının təhlükəsizlik məsələləri də əlbəttə ki, nəzərə alınacaqdır.

**-Cənab Prezident, bəs ümumilikdə Azərbaycanın baş verənlərlə bağlı Rusiyadan gözləntiləri və tələbləri nədən ibarətdir?**

-Biz öz tələblərimizi açıq şəkildə Rusiya tərəfinə bildirmişik. Dekabrın 27-də artıq bu tələblər rəsmi qaydada onlara çatdırıldı. Bu, nədən ibarətdir? Birincisi, Rusiya tərəfi Azərbaycandan üzr istəməlidir. İkincisi, öz günahını etiraf etməlidir. Üçüncüsü, günahkarları cəzalandırmalıdır, cinayət məsuliyyətinə cəlb etməlidir və Azərbaycan dövlətinə və zərərçəkən sərnişin və ekipaj üzvlərinə təzminat ödəməlidir. Bu, bizim şərtlərimizdir. Onlardan birincisi artıq dünən təmin edildi. Mən ümid edirəm ki, digər şərtlərimiz də qəbul ediləcək. Bütün bu şərtlər ədalətlidir. Burada hər hansı bir fövqəladə tələb, yaxud da ki, məsələ yoxdur və bu, beynəlxalq təcrübəyə və normal insani davranışa əsaslanır. Bax, budur. Yenə də deyirəm, Azərbaycan ictimaiyyəti məsələnin bütün tərəfləri barədə məlumatlandırılacaq və məlumatlandırılır. Dediyim şərtlər də, bunlar təbii olaraq ictimaiyyətə sizin vasitənizlə çatdırılır və yenə də deyirəm, mən ümid edirəm ki, bizim şərtlərimiz qəbul ediləcək.

-Çox sağ olun, cənab Prezident. Suallarımıza ətraflı şəkildə cavab verdiyiniz üçün minnətdarıq.

-Sağ olun.

# Prezident İlham Əliyev təyyarə qəzasında həlak olan ekipaj üzvlərinin vida mərasimində iştirak edib










Dekabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı-Qrozni istiqamətində uçan təyyarənin qəzaya uğraması nəticəsində həlak olan ekipaj üzvlərinin Heydər Əliyev Beynəlxalq Aeroportunda keçirilən vida mərasimində iştirak edib, onların ailə üzvlərinə və yaxınlarına başsağlığı veriblər.

*Hər bir xalqın öz milli birlik fəlsəfəsi var. Azərbaycanlıların da tarixində birlik və bərabərliyi ifadə edən möhtəşəm təqvimlər mövcuddur. 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü təqvimizdə xüsusi yer tutur. "Həmrəylik" mənası yekdilliklə hərəkət və ya qərar üçün qarşılıqlı məsuliyyət konsensus, öhdəlik əks etdirir. Artıq neçə illərdir ki, azərbaycanlılar öz həmrəylik günlərini qeyd edirlər.*

# 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü

Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır.

Azərbaycanlıların həmrəylik modelinin, xalqın həmrəyliyinə və gələcəyinə xidmət edən dövlət siyasətinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Məhz Ümummilli Liderin birbaşa təşəbbüsü və konkret addımları sayəsində dünya azərbaycanlılarının həmrəyliyi, onların təşkilatlanması prosesi diqqət mərkəzində saxlanılıb. Ulu öndər Heydər Əliyev 1991-ci ildə dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etməklə xalqın birləşməsinə və ideoloji həmrəyliyinə müvəffəq olmuşdur, dünya azərbaycanlılarının həmrəyliyinin təmini məsələsi öz həllini tapmışdı.

31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü bayramı dünyanın 70-dən çox ölkəsində azərbaycanlılar tərəfindən qeyd olunur. Həmrəylik günü Azərbaycan diasporu üçün ən mühüm bayrama çevrilib. Həmrəylik gününü hətta milliyyətcə azərbaycanlı olmayıb, lakin Azərbaycanda doğulub böyümüş, Azərbaycan əsilli diaspor nümayəndələri də qeyd edirlər. Azərbaycanlılar minilliklər boyu özlərinin doğma torpağı olan tarixi Azərbaycan ərazisində yaşayaraq, dünya sivilizasiyasına böyük töhfələr vermişlər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən müxtəlif ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanmış, azərbaycanlıların bir qismi öz yurd-yuvalarından didərgin salınmış, deportasiyalara məruz qalmış, birbirindən ayrı düşmüşdür. İş tapmaq, təhsil almaq məqsədilə doğma yurdu tərk edərək, başqa ölkələrdə qərar tutub yaşayan azərbaycanlılar da vardır. Beləliklə də, azərbaycanlılar tarixi Azərbaycan torpaqlarından bütün dünyaya yayılmışlar. Hazırda onlar dünyanın bir çox ölkələrində yaşayırlar. Rusiyada, Ukraynada, Müstəqil Dövlətlər Birliyinin digər ölkələrində, Baltikyanı ölkələrdə, Avropada, Amerikada, Şərq ölkələrində iri Azərbaycan icmaları yaranmışdır.

## AZƏRBAYCANÇILIQ MƏFKURƏSİNDƏN YARANAN AMAL

Azərbaycan diasporu bu gün bir məslək və əqidə ətrafında yetərincə birləşərək, ölkəmizin mənafeyi istiqamətində ardıcıl iş aparır. Qloballaşan dünyada müxtəlif ölkələrdə yaşayan azərbaycanlıları bir araya gətirmək, bir məslək və ideya ətrafında birləşdirmək, əlbəttə ki, azərbaycançılıq məfkurəsindən yaranan amaldır. Təbii ki, ötən əsrin 90-cı illərinin əvvəllərində müstəqillik əldə etmiş Azərbaycanda ideya əsas prioritetlərdən biri elan edilərək, bu istiqamətdə ardıcıl işlər görülməyə başlandı. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı, digər sahələrdə olduğu kimi, diaspor quruculuğu işində də əsaslı dönüş yaratdı.

## ”MÜXTƏLİF ÖLKƏLƏRDƏ AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNİ, ONUN XARİCİ SİYASƏTİNİ TƏBLİĞ ETMƏKLƏ YANAŞI, AZƏRBAYCANIN PROBLEMLƏRİNİN HƏLL OLUNMASINA YARDIM ETSİNLƏR”

Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onlar arasında birliyin və həmrəyliyin təmin olunması kimi məsələlərin, zərurətini nəzərə alaraq, Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında 2001-ci ilin may ayının 23-də Ümummilli Lider Heydər Əliyevin məlum Sərəncamı bu ideologiyanın gerçəkləşməsinə istiqamətləndi. Qurultay milli ideologiyamız olan azərbaycançılıq ideyası ətrafında soydaşlarımızın birlik və həmrəyliyini nümayiş etdirdi. Qurultayda Ulu Öndər Heydər Əliyev qurultayın məqsədinə, qarşıya qoyulan məsələlərə aydınlıq gətirərək, bildirmişdi ki, hamımız - siz də, biz də çox iş görməliyik ki, Azərbaycanın güclü diasporu yaransın: ”Müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar daha da güclənsinlər. İqtisadi cəhətdən daha da möhkəmlənsinlər, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirak edə bilsinlər və o ölkələrin həyatına öz təsirlərini göstərə bilsinlər. Beləliklə də, müxtəlif ölkələrdə Azərbaycanın müstəqilliyini, onun xarici siyasətini təbliğ etməklə yanaşı, Azərbaycanın problemlərinin həll olunmasına yardım etsinlər. Hesab edirəm ki, dünya azərbaycanlıları bu yol ilə getməlidir və bu yolda hələ istifadə olunmamış böyük imkanlar vardır. Bu gün işinə başlayan qurultay da, məhz bu məqsədi daşıyır”. Bir il sonra 5 iyul 2002-ci il tarixində Ümummilli Lider Heydər Əliyevin ”Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında” imzaladığı Fərman tarixi hadisəyə çevrildi. Artıq imzalanan bu rəsmi sənəddən bu gün 19 il keçir. Tarixi dövr ərizində görülən işlərin miqyası ildənilə artmışdır. Əgər o vaxt dünyada 200-dən bir qədər çox diaspor təşkilatımız var idisə, hazırda onların sayı 500-ə yaxındır. Azərbaycan diaspor təşkilatları həm kəmiyyət, həm keyfiyyət baxımından böyük yol keçmiş, güclənmiş, bu gün dünya miqyasında azərbaycanlılar və onların təmsil etdikləri təşkilatlar önəmli rol oynayırlar. Bu gün əsasi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan diaspora quruculuğu siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qayğısı və yüksək diqqəti sayəsində uğurla davam etdirilir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2008-ci il 19 noyabr tarixli 54 saylı Sərəncamı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradıldı.

## DÜNYANIN HƏR BİR QİTƏSİNDƏ MƏSKUNLAŞAN SOYDAŞLARIMIZ

Azərbaycan diasporu təşkilatlanaraq, ölkəmizin milli maraqlarını əzmlə qoruyan bir qüvvəyə çevrilib.Azərbaycan diasporunun məskunlaşma coğrafiyasının miqyası sonsuzdur. Dünyanın 5 qitəsində məskunlaşan soydaşlarımızın siyasi, iqtisadi və sosial-mədəni fəaliyyəti yaşadıqları ölkələr, oradakı şərait və mənəvi dəyərlər kimi müxtəlifdir. Lakin problemlərə və çətinliklərə baxmayaraq, azərbaycanlılar hər zaman öz milli mənsubiyyətini, adət-ənənələrini, mənəvi-əxlaqi dəyərlərini qayğı ilə qoruyub-saxlayıb və tarixi Vətənlə əlaqələrini itirməyiblər. Bu gün dünyanın müxtəlif ölkələrində diasporumuzun mövcudluğu da, məhz bu amillə bağlıdır. Azərbaycanlılar Amerika qitəsinin şimal, mərkəzi və cənub hissəsində daha çox məskunlaşıblar.

Ölkəmizdə keçirilən dünya azərbaycanlılarının qurultayları da ölkəmizin tarixinə iftixar gətirəcək hadisələr sırasındadır. Çünki dünya azərbaycanlılarını təmsil edən əsas diaspor təşkilatlarının nümayəndələri, rəhbərləri Azərbaycana - doğma Vətənə gəlir, birliyi və həmrəyliyi nümayiş etdirirlər. Dünya Azərbaycanlılarının IV Qurultayının rəsmi açılışında Azərbaycan Prezidenti İlham Əliyev çıxışında ”Mən çox istəyirəm ki, xaricdə fəaliyyət göstərən diaspor təşkilatları da bir nöqtəyə vursunlar, birləşsinlər. Belə olan halda, onların gücü də, ictimaiyyət tərəfindən onlara qarşı hörmət də artacaq” deyərək, birliyin əsas məsələlərdən olduğunu diqqətə çatdırmışdır: ”Xüsusilə, nəzərə alsaq ki, bütün azərbaycanlılar, onların böyük əksəriyyəti vətənpərvərdirlər, Vətənə bağlıdırlar. Onlar istəyirlər ki, Azərbaycan dövləti daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin”.




## MİLLİ HƏMRƏYLİYİN TƏCƏSSÜMÜ – 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİ

Azərbaycan millətinin birlik şüarının simvolik günü ildən-ilə daha geniş vüsət alır, daha geniş şəkildə keçirilir. Bu günün qeyd edilməsi bütün dünya azərbaycanlıları tərəfindən artıq bir zərurətə və mənəvi ehtiyaca çevrilib. Azərbaycan xalqının milli həmrəyliyi 44 günlük Vətən müharibəsində möhtəşəm Qələbənin qazanılmasında mühüm rol oynadı. Haqq, ədalət savaşı Azərbaycanda formalaşmış milli həmrəyliyin təcəssümü oldu.

## “TARİXİ ZƏFƏRDƏN SONRA İLK DƏFƏDİR Kİ, DÜNYA AZƏRBAYCANLILARI TOPLAŞIR, QURULTAY KEÇİRİR VƏ ÜMUMİYYƏTLƏ ZƏFƏR ADI XALQIMIZA ÇOX YARAŞIR”

Bütün Türk dünyasının mədəniyyət beşiyi qədim Şuşa şəhərində Dünya Azərbaycanlılarının V qurultayının keçirilməsi tariximizdə yeni səhifə açdı. 65 ölkədən 400-dən çox diaspor nümayəndəsi və qonaqların iştirak etdiyi Qurultayın açılışında Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev söylədiyi geniş nitqində bu mötəbər tədbiri Zəfər qurultayı elan etdi. Azərbaycan Prezidentinin Qurultayda söylədiyi nitqi postmünaqişə dövründə ölkəmizin mövqeyi ilə yanaşı, diaspor fəaliyyətinin inkişafı üçün də əsas hədəfləri aydın şəkildə özündə ehtiva etdi.

Qurultayda Prezident İlham Əliyev öz çıxışında ”Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə Zəfər adı xalqımıza çox yaraşır. Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır. Hazırda ölkəmizin müxtəlif yerlərində, ilk növbədə, azad edilmiş ərazilərdə Zəfər muzeyləri inşa edilir. Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi yaşayacaq, əbədi yaşayacaq, bundan sonra bizim dövlətimiz qalib dövlət kimi yaşayacaq. Bu, hamımız üçün, Azərbaycanda yaşayanlar, Azərbaycan vətəndaşları üçün, xaricdə yaşayan azərbaycanlılar üçün böyük xoşbəxtlikdir. Bu tarixi missiyanı həyata keçirən bizim qəhrəman övladlarımız tarix qarşısında, xalq qarşısında, Vətən qarısında misilsiz xidmətlər göstərmişlər. Müstəqillik dövründə yetişən gənclər, vətənpərvərlik ruhunda yetişən gənclər bu tarixi hadisəni, tarixi müjdəni Azərbaycan xalqına bəxş etmişlər”, - deyib.

Azərbaycan xalqı 30 il davam edən işğala son qoymaq üçün öz Prezidentinin ətrafında birləşdi, öz birliyini, iradəsini və gücünü ortaya qoydu, ədaləti bərpa etdi, beynəlxalq hüququ bərpa etdi və bütün dünyaya haqlı mövqeyini sübut etdi. Şuşa şəhəri xalqımız üçün son dərəcə əziz, müqəddəs bir məkandır və bu şəhərə olan sevgi, bağlılıq hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır. Bu gün isə artıq Azərbaycan xalqı bu torpaqlarının əsil sahiblərinin kim olduğunu bütün dünyaya nümayiş etdirir və bir daha özünün yaradıcı, sülhsevər və gələcəyə böyük ümidlərlə baxan xalq olduğunu hər kəsə sübut edir. Şuşa gün hər bir Azərbaycan vətəndaşının, eləcə də xaricdə yaşayan soydaşlarımızın qürurunun ünvanıdır. Əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan diaspora quruculuğu siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qayğısı və yüksək diqqəti sayəsində uğurla davam etdirilir. Dünya ilə sərhədsiz münasibət quran Azərbaycan müxtəlif qitələrdə öz sözünü əməli çərçivəsində deyə bilir. Bütün bunlar Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu diasora siyasətinin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davamının məntiqidir.

***Zümrüd BAYRAMOVA***

# Əlvida 2024, xoş gəlirsən, 2025!



2024-cü ilin son günlərindəyik. Bir il də ömür kitabımızın bir vərəqini, beləcə, çevirdi, bir il də ötdü həyatımızdan, deyirik. Bəli, ötür, ötəcəkdir də, zaman adlı köhlən atı kim saxlaya bilər ki? O çapır, gün keçir ay olur, aylarsa illəri əvəzləyir. Fəsillər dəyişir... Bahar yay, payızsa qış olur. Necə də bənzəyir insan ömrünə. Bahar gənclik, yay orta yaş, payız qocalıq, qış da ahıllıq. Ötür zaman, insan elə ki bahardan yaya boylandı, oradan da payıza bir nəzər saldı, payızın füsunkar yarpaqtökümünü izlədi, deməli, bir il də yollanır öz arxivinə. Çünki yarpaq tökümü təbiətin yaşlanması, ahıl çağının çatması, bəyaz saçlarına sığal çəkərək “bir ili də başa vurdum”, deməsidir. Şair demişkən:

**Ağacdan yarpaqlar endikcə bir-bir,**
**İl də arxasından atır yükünü.**
**Təqvimin kötüyü üstündə əsir,**
**Tək qalan son varaq – ilin son günü.**

İlin tamamında ötən günlərə nəzər salan insan sanki onun qiymətini verir. “Bu il mənim üçün uğurlumu, uğursuzmu oldu”,– deyə ya onu ittiham edir, ya da əzizləyir, kaşki heç bitməzdi, – deyir. Nədənsə, ilin son günlərində həmişə ötən illərlə bağlı xatırladığımız anlar olur. Bu xatirələr sanki ömür vərəqlərinə hopubmuş kimi zamanı çatanda yenilənir, o günləri xatırladır bir daha – qayğısız uşaqlıq illərini, qışda qarın yağmasını səbrsizliklə gözlədiyimiz günləri... Axşamdan qar yağdığını görərkən səhərədək sevincdən yata bilmədiyimiz günlər xatırlanır. Səhəri gün xizəkləri götürüb sürüşməyə getməyimiz, qartopu oynamağımız, bir-birimizi yerə yıxıb qarla islatmağımız, yorulmağın nə olduğunu bilmədiyimiz günlər keçir gözlər önündən. Məktəblərdə keçirilən yeni il şənlikləri, bu şənliklərə bir ay əvvəldən hazırlaşmağımız, şeirlər əzbərləməyimiz, səhnəciklər hazırlamağımız kimi şirin xatirələr ola bilərmi? Məktəbdə böyük, təbii şam ağacının bəzədilməsi, onun ətrafa yayılan özünəməxsus ətri elə bil o illərin qoxusunu hər an burnumuza gətirir. Artıq o illərdən sonra sanki nə şam ağacları o ətri verir, nə yeni il şənlikləri o qədər gözəl, şirin olur. Həmin illərdən sonra qarın da ovaxtkı qədər yağdığını görə bilmədik. O vaxt-bu vaxt xizəklər bayıra çıxarılmadı ta, nə qar topu oynanıldı, nə islandıq, nə də üşüməyin nə olduğunu bir daha hiss etmədik. Onlar sadəcə xatirələrə hopdular, xatirələr adlı evlərə yerləşdilər və qapıları açılandan-açılana sadəcə xatırlananlar oldular.



İlin bu günləri ölkəmizin iqtisadi böhranla üzləşdiyi gənclik illərimizi də gözlər önünə gətirir. Sovet ittifaqının buxovundan güc-bəla ilə azad olub, müstəqilliyimizi yenicə bərpa etdiyimiz həmin illər sosial-iqtisadi vəziyyətin könülaçan olmaması, ərzaq qıtlığı səbəbindən insanların sıxıntı içərisində yaşaması, ürəkləri istəyən kimi süfrələr aça bilməməsi, soyuq, bəzən qaranlıq evlərimiz heç vaxt unuda bilmədiyimiz günlərdir. Çünki yaxşı dərk edirdik ki, əsarət zəncirlərini öz əllərimiz ilə didib-dağıdıb, parça-parça edib ayaqlar altına atmışıq, müstəqil yaşamaq əzmi ilə mübarizəyə qalxmışıq. Tarixin heç bir dönəmində, dünyanın heç bir ölkəsində müstəqillik asan əldə olunmayıb. Bu yolda qanlar da axıdılıb, övlad, ər, sevgili həsrəti də yaşanıb, aclıq, səfalət də hökm sürüb. Lakin səbir, dözüm, iradə xoş günlərin, bəxtəvər illərin müjdəsi olub.

Gəncliyimizə tuş gələn müharibə, Qarabağımızın işğal olunması, 20 Yanvar, Xocalı kimi faciələr yaşamağımız illəri bir-birinin arxasınca kədər və qüssə ilə tarixin arxivinə atırdı. Hər ötən ildən bizə qalan qəlb ağrısı idi. Sanki ilin bütün fəsilləri qış idi. Soyuq, günəşsiz həyat başımızın üstünü kəsmişdi. Həmin illər nə illərin başa çatdığının, nə də yeni ilin həyatımıza daxil olduğunun fərqində belə deyildik.

Bax, beləcə, o illərə hamı birlikdə – eyni qayğılarla yekun vururdu, hər ötən il hamı üçün eyni təəssüratlarla yadda qalırdı. Yeni ilə könülsüz salam verib, əlini sıxırdıq – bəlkə, bu yeni il hər şey düzələr – deyə. Deməli, ümidlər sarsılmırdı. Qışın şaxtası, soyuğu bu ümidləri qamçılayıb yoxa çıxara, puç edə bilmirdi.




İllər ötür, bir-birinin yerini alır. Biz isə torpaqlarımızın azad olunacağı günü gözləyir, həmin tarixdən bayramların, şənliklərin ömrümüzə qədəm qoyacağına icazə verəcəkmiş kimi o günlərin yaşanmasını gözləyirdik. İllərsə o zamanı gətirib çıxaracaqdı. Hər yola saldığımız köhnə ildə başımıza gələn müsibətləri xatırlayır, gələn yeni ildən tək istəyimiz torpaqlarımızın azad olunması olurdu. Çünki biz onlarsız tam deyildik. Qarabağ işğal altında olduğu halda, düşmənin əlində, ayaqları altında olduğu vaxt nə bayram, nə yeni il, nə şadyanalıq?..

Könlümüz açılmırdı, günahkar hesab edirdik özümüzü. Sanki xəstə övladımıza şəfa verə bilmirdik, onu müalicə etdirə, həkimə apara bilmirdik. Övladımız isə gözlərimiz önündə günü-gündən saralıb-solurdu. Bax, Qarabağ qara bəxti ilə gözlərimiz önündə bir övladımıza edə bilmədiklərimiz qədər çarəsiz dayanırdı. Bizsə ona baxır, gözümüzün yaşını ələyir, gücümüzün sadəcə buna çatmasına yanıb-yaxılırdıq.

Həqiqətən illər ömür kitabının vərəqləridir. Bu vərəqlərə nə talelər, nə qismətlər yazılır... Minlərlə soydaşımız ötən bir qərinəyədək zamanın ömür kitabının səhifələrinə yalnız göz yaşlarını hopdura bildi, hicranı, həsrəti yazdılar. Qərib qəbirlərini, həsrətində olduqları yurdlarının hicranını yazdırdılar. Onlar yurd həsrəti ilə qovrulub yanıb-yaxıldıqlarını o səhifələrə həkk etdilər. “Qoy qalsın bu səhifələrdə, qalsın ki, qonşu dediklərimizin başımıza gətirdikləri oyunları gələcək nəsillər də bu səhifələrdən oxusunlar, öyrənsinlər. Çünki keçmişini bilməyən gələcəyinin də qədrini bilə bilməz”, - söylədilər.



İllərsə ötdükcə, bizləri torpaqlarımıza yaxınlaşdırırdı. Gənclik çağlarımızda ölkəmizdə şahidi olduğumuz iqtisadi böhran arxada qalırdı. Ölkəmiz gündən-günə inkişaf edir, müstəqil bir yolda müstəqil addımlarla irəliyə hərəkət edirdi. Bu inkişaf isə ordumuzun güclənməsi, ordumuzun güclənməsi isə torpaqlarımızın geri qaytarılacağı günü yaxınlaşdırırdı.

Dövlətimizin başçısının 2020-ci ilədək bütün bayramlarda xalqımıza müraciətlərini xatırlayırıq. Bu müraciətlər tək bayram münasibətilə xalqa təbrik deyildi, həm də onlara verilən böyük bir ümid idi. Ağrılı yaralarımızın sağalacağı günü səbirlə gözləməyə çağırış idi. Bu müraciətlər xalqın Liderinin onun arzularını bir gün reallaşdıracağına verdiyi söz idi.

2020-ci il... Zəfər, qələbə ilimiz, torpaqlarımızın işğaldan azad olunan ili. Minlərlə övladımızın şəhid, yüzlərlə övladımızın qazi olması hesabına qazandığımız qürur ilimiz. Sən demə 2019 bizim Qarabağsız qarşılanan son ilimiz imiş. 2019-cu il dövlətimizin başçısının 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqımıza müraciətində işğal altında olan torpaqlarımızdan sonuncu dəfə bəhs etməsi ili idi. Qarşıdakı 2020-ci il Zəfəri ilə ömrümüzə-günümüzə günəşli günlər gətirdi. 2020 bizə şərəfimizi, ləyaqətimizi qaytardı. Hər dəfə Qarabağdan söhbət düşəndə aşağı dikdiyimiz başımızı yuxarı qaldırmağı bəxş etdi.

Ali Baş Komandan cənab İlham Əliyevin 17 il ərzində apardığı böyük siyasət nəticəsində 2020-ci ilin tarixinə Zəfər sözünü yaza bildik. Ulu Öndərimiz Heydər Əliyevin torpaqlarımızın işğaldan azad olunması ilə bağlı vəsiyyətini reallaşdıra bildik. Xalqımız başını dik tutdu. Birliyimiz, həmrəyliyimiz, böyük sərkərdəmizin arxasında möhkəm dayanmağımızla qələbəni qazana bildik. Biz Qarabağımızı xilas etdik. Onu anası Azərbaycana qovuşdura bildik. Qarabağın baş tacı, döyünən ürəyi Şuşanı azad etdik. Şuşa qəhrəman, igid övladlarımızın əlləri, dağa-daşa sürtünən sinələri, böyük əzmləri ilə geri alındı. Böyük bir hərbi əməliyyatla Şuşa tarixin səhifələrinə Azərbaycan ordusunun möhtəşəmliyini yazdı.

Qarabağda, budur, dörd ildir, başlanan quruculuq, bərpa işləri sanki hər gün həyatımıza bayram, şadyanalıq kimi xoş anlar qatır. Düşünəndə ki, soydaşlarımız öz ata-baba yurdlarına, ev-eşiklərinə qayıdır, bu, bizim üçün hər günü bayram edir.

Artıq 2020-ci il də daxil olmaqla beşinci yeni ildir ki, onu könlüaçıq qarşılayırıq. Çünki qəlbimizdən dağ boyda bir düyün açılıb, atılıb. Bizim hicranımız üzərində vüsal qələbə çalıb. Bizim torpaqlarımızın işğalı üzərində azadlıq qələbə çalıb. Soydaşlarımızın məcburi köçkünlüyü üzərində yurda qayıdış qələbə çalıb.

İndi qış fəslidir. Lakin Qarabağ artıq beş ildir ki, bir fəsil yaşayır-bahar fəslini. Sanki baharın gözəlliyindən doymur, onun yerini başqa fəsillərin almasını istəmir. Çünki 30 il idi ki, baharı qovmuşdu, “get, azadlığım gələndə gələrsən”,- demişdi. Gülünü-çiçəyini sinəsindən yolub atmışdı. “Gedin, azadlığım gələndə siz də gəlib köksümü bəzəyərsiniz”,- demişdi. Allı-güllü yaylığını çıxarıb başına qara bir şal salmışdı. Günəşi qovmuşdu, dumana bürünmüşdü, “mən günəşi bir də azad olunanda qarşılayacam”,- demişdi.

Budur, qışdır. Lakin Qarabağda yazdır, bahardır. Minlərlə şəhid və qazimiz bu yurd yerimizə baharı gətirib. Qarabağ allı-güllü donunu geyinib, başından qara şalını açıb, qırmızı bağlayıb. Bu yerlərə artıq günəş doğur və o günəş heç qüruba enmir. Enməyəcək də. Çünki bu günəş əbədiyyən doğub.

İlin son günü... Son 30 ili düşünürsən... Biz nə illər yola salmışıq, nə illər qarşılamışıq... Biz hansı tarixlərlə, hadisələrlə bir 365-i başa vurub, digər 365-i qarşılamışıq. Acısı şirinindən qat-qat çox illəri... Şükürlər olsun ki, artıq o illər tarixin arxivinə yollandı. Artıq qəlbimiz açıq, başımız dikdir.

Bütün bu gözəlliklərin fonunda düşünürsən ki, nə yaxşı ki ötən illər yaşanıb, müstəqil olmuşuq. Nə yaxşı ki ötən illər yaşanıb, qədirbilən olmuşuq. Gəl, 2025, gəl, vərəqlə ömür kitabımızı. Gəl, əl-ələ verək, həmrəy olaq, yeni bir tarix yazmağa başlayaq. Şair demişkən:

**Qəlbimizin odundan**
**Alovlansın hər ocaq.**
**Biz nə zaman bir olsaq,**
**O gün bayram olacaq**

Əlvida 2024, xoş gəldin 2025! Qədəmlərin uğurlu olsun. Gəl, yeni il, gəl, aç ömür kitabımızın 2025-ci səhifəsini, yaz ora şairin bu misralarını:

**Ötür illər, fəsillər,**
**Günlər dönüb aylanır.**
**Ömrümüzə bu axşam**
**Bir gələcək boylanır**

***Mətanət Məmmədova***





# Yurd yerlərinə qalib xalq kimi qayıdırıq!

## Prezident İlham Əliyev: "Qarabağın hər bir yerində sahib kimi, bu Vətənin övladları kimi yaşayırıq, qururuq, bərpa edirik"

***Çağdaş dünyamızda tamamilə yeni bir dövrə qədəm qoyan Azərbaycan Böyük Qayıdış konsepsiyasını uğurla reallaşdırır. İşğaldan azad edilmiş torpaqlara qayıdırıq və həmin yerlərdə yeni bir həyat başlayır. 30 ilə yaxın işğal altında olan torpaqlarımız azad olunandan sonra Qarabağımız və şərqi Zəngəzur müasir dünyanın ahəngində qurulur, ona yeni həyat verilir. Zəfər qazanan Azərbaycan tarixin dönəmində inkişaf yolu keçərək böyük quruculuq işlərini həyata keçirməyə başlayıb. Bu gün Şuşamızda, Kəlbəcərdə, Qubadlıda və digər ərazilərdə böyük abadlıq-quruculuq işlərinə başlanılıb və işğaldan azad olunan hər bir şəhər, qəsəbə və kənd müasir məkana çevrilir.***

Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, Qarabağ və Şərqi Zəngəzur bu gün böyük tikinti meydançasına çevrilmişdir. Dövlət başçısının sözlərinə əsasən, artıq on minə yaxın keçmiş məcburi köçkün öz doğma evlərinə qayıtmışdılar.

Azərbaycanın yaratdığı tarixi reallıqların məntiqi nəticəsi olaraq ölkəmiz yeni mərhələni yaşayır. Azərbaycanın öz suverenliyinin bərpası, Qarabağın azad olunması, eləcə də Qarabağdan separatizmin təmizlənməsi yeni imkanlar yaratmış oldu. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri həm Vətən müharibəsində, həm də lokal antiterror tədbirləri zamanı peşəkarlığını, qarşısına qoyulmuş vəzifələri ən yüksək səviyyədə icra etmək məharətinə malik olduğunu bir daha nümayiş etdirdi. Ötən ilin sentyabrın 19-da başlayan və təqribən 24 saat davam edən lokal antiterror tədbirləri Azərbaycan tarixinin şanlı səhifələrindəndir. Vətən müharibəsindəki tarixi Qələbəmizdən və Ermənistanın kapitulyasiyasından sonra Azərbaycan dövləti humanizm göstərərək, ölkəmizin erməni əhalisi ilə reinteqrasiya prosesinə start verdi. Vətən müharibəsində qəhrəmanlıq göstərən Azərbaycan Ordusu bu dəfə də yüksək peşəkarlıq nümayiş etdirərək, Ali Baş Komandanın onların qarşısında qoyduğu tapşırığı cəmi 24 saatda yerinə yetirdi. Nəticə olaraq separatçılar ağ bayraq qaldırdı və dövlətimiz qarşısına qoyduğu bütün hədəflərə çatdı. İndi bütövlükdə bölgədə sülh və inkişaf üçün gözəl şərait yaranıb. 30 ilə yaxın işğal altında olan və 44 günlük Vətən müharbəsi zamanı azad olunan ərazilerimiz hər kəsə qürur yaşatdi.

Dünyanın gözü qarşısında ermənilərin bəşəriyyət tarixində törətdikləri ən ağır cinayətlərdən biri olan Xocalı soyqırımı tariximizdə silinməz səhifdir. Bəşəriyyətin ən qədim yaşayış məskənlərindən olan Xocalı bir gecənin içərisində yerlə-yeksan edildi. 1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağ ərazisindəki keçmiş SSRİ-nin Xankəndidə yerləşən 366-cı motoatıcı alayının şəxsi heyətinin və hərbi texnikasının, bilavasitə iştirakı ilə Xocalı şəhərini zəbt edərək, xalqımıza qarşı analoqu olmayan soyqırımı aktı həyata keçirdi. Ermənilərin həyata keçirdikləri soyqırımı zamanı Xocalı şəhəri tamamilə dağıdıldı, 63 uşaq, 106 qadın və 70 qoca xüsusi amansızlıqla, işgəncələrlə qətlə yetirildi. 8 ailəni tamamilə məhv edildi. 114 nəfər itkin düşdü. 487 nəfər isə əlil oldu.





### XOCALI QURBANLARININ XATİRƏSİ ƏBƏDİLƏŞDİRİLDİ

Bu hadisə XX əsrin ən dəhşətli və qəddar faciələrindən biri hesab edilir. Xocalı soyqırımı tarixdən bizə məlum olan Babiyar, Xatın, Liditse, Srebrinitsa soyqırmı faciələri ilə eyni səviyyədə durur.

Xocalının qisası alındı. İndi Xocalı yeni dövrünə qədəm qoyub. Otuz iki ildən sonra Xocalı qurbanlarının xatirəsini əbədiləşdirmək üçün prezidentimiz tərəfindən cari ilin fevralın 26-da memorial kompleksin təməli qoyuldu. Prezident İlham Əliyev fevralın 26-da Xocalı şəhərində rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bildirib ki, otuz iki ildən sonra biz doğma torpağımıza qayıtmışıq.

Bu gün dünya ictimaiyyətinə Azərbaycan həqiqətləri geniş şəkildə çatdırılır. Dünya insanı Xocalıda baş verən olayları layiqli və düzgün qiymətləndirir. Xocalı soyqırımının tanınması Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, eləcə də, bu soyqırımına obyektiv qiymət verilməsi istiqamətində, davamlı olaraq, addımlar atılır. Aparılan bu uğurlu siyasətin nəticəsidir ki, dünya ölkələrinin bir qismi tərəfindən Xocalı soyqırımını rəsmən tanıması barədə qərar qəbul edilib.

Xocalı soyqırımı ilə bağlı tarixi faktlar barədə beynəlxalq ictimaiyyətin dolğun şəkildə məlumatlandırılmasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən başlanılan "Xocalıya ədalət!" beynəlxalq kampaniyasının xüsusi əhəmiyyəti vardır. Kampaniya ilk gündən Xocalı soyqırımının, Ermənistan-Azərbaycan münaqişəsinin tarixi səbəbləri və nəticələri, həmçinin Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd-şərtsiz və dərhal çıxarılmasının zəruriliyi ilə bağlı beynəlxalq maarifləndirmənin artırılmasını qarşısına məqsəd qoyub. Prezidentin bildirdiyi kimi, "Əfsuslar olsun ki, "Xocalıya ədalət!" çağırışımız cavabsız qaldı. Düzdür, 18 ölkə bizim səylərimizin nəticəsi olaraq bu qanlı faciəni soyqırımı kimi tanımışdır. Ancaq bu ölkələrin arasında böyük dövlətlərin adları yoxdur. Beynəlxalq təşkilatlar, onların bir çoxu bu faciəyə biganə qalmışdır." Dövlət başçımız onu da bildirib ki Xocalı soyqırımı dünyanın gözü qarşısında baş vermiş qanlı cinayətdir.

Ardı Səh. 7

# Yurd yerlərinə qalib xalq kimi qayıdırıq!





Əvvəli-Səh-6

Xocalı soyqırımını inkar etmək ədalətsizlik və vicdansızlıqdır: "Halbuki Ermənistan dövləti, o vaxt və bu gün onun arxasında duran eyni qüvvələr, eyni ölkələr əlindən gələni edirdilər ki, bu hadisə ört-basdır edilsin, Ermənistan məsuliyyətə cəlb olunmasın, Ermənistana qarşı hər hansı bir sanksiya tətbiq edilməsin və onlar cəzasız qalsın."

Beynəlxalq hüquqa əsasən, genosid ən ağır cinayətlərdəndir. Genosidin hüquqi əsası bir sıra sənədlərdə öz əksini tapmışdır. BMT Baş Məclisinin 1946-cı il 11 dekabr tarixli qətnaməsində qeyd olunur ki, genosid insan qruplarının yaşamaq hüququnu pozmaqla insan mənliyini təhqir edir, bəşəriyyəti insanlar tərəfindən yaradılan maddi və mənəvi dəyərlərdən məhrum edir. Xocalıda törədilən əməllər BMT-nin məqsəd və vəzifələrinə, ümumbəşəri dəyərlərə tamamilə ziddir. Ermənilərin azərbaycanlılara qarşı yürüdülən soyqırımı siyasətinin tarixi əsrləri əhatə edir. Hadisələri ardıcıllıqla izləsək, görərik ki, Azərbaycanın başına gətirilən olaylar tarixdə, demək olar ki, eyni ssenari üzrə cərəyan edib.

## BİR GECƏDƏ MƏHV OLAN ŞƏHƏRƏ QAYIDIŞ

Artıq Xocalı əzəli sakinlərinə qucaq açıb. Növbəti köç karvanı Xocalı rayonunun Ballıca kəndinə çatıb. 21 ailə olmaqla, 119 nəfər keçmiş məcburi köçkün doğma yurduna qovuşub. Onlar böyük coşqu ilə qarşılanıblar və Ballıca kəndinin təbiət gözəlliyini seyr ediblər. Xocalı sakinləri - keçmiş məcburi köçkünlər 32 ildən sonra öz vətənlərinə qayıtmalarının sevincini yaşayıb, evlərində məskunlaşıblar. İşğaldan azad olunmuş digər ərazilərdə olduğu kimi, Ballıca kəndində də həyat yenidən canlanır. Böyük Qayıdışla bağlı kənddə bütün infrastruktur yenidən qurulub. Kənd elektrik enerjisi, içməli su, təbii qaz və sürətli internetlə təmin olunub.

Xatırladaq ki, Xocalı rayonunun Ballıca kəndinə ilk köç dekabrın 13-də reallaşıb. Bu mərhələdə 27 ailə olmaqla, 152 nəfər Ballıca kəndinə köçürülüb. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Böyük Qayıdış çərçivəsində keçmiş məcburi köçkünlərin işğaldan azad olunmuş ərazilərə qayıdışı davam edir. Hazırda Qarabağda və Şərqi Zəngəzurda, oraya köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən insanların sayı ümumilikdə 34 minə çatıb.

Böyük Qayıdış tarixində daha bir əlamətdar hadisəyə – yaddaşımızda daşlaşacaq bir qayıdışa Xocalı qayıdışına şahidlik etdik. 32 il həsrətlə, intizarla, göz yaşları içərisində gözlədiyimiz tarixi bir gün. Yüzlərlə insanın qanı tökülən bir şəhərə qayıdış, inləyən, sızlayan bir şəhərə qayıdış. Bir gecənin içində məhv olan sakinləri dərbədər düşən, qocası, uşağı zillətlə məhv edilən bir torpağa qayıdış.

Bu gün Xocalı niskilli deyil, bayram əhvali-ruhiyyəsindədir. Bəli, xocalılılar şəhərə qayıdırlar. O sakinlərlə ki, illərin yarası qaysaqlanmayıb. O sakinlərlə ki, körpə ikən buradan qarlı-şaxtalı bir gecədə fəryad edərək ana qucağında, yaxud anasının qanı tökülmüş torpaqda qoyaraq məcburən qovulmuşdu.



## "XOCALI QƏDİM AZƏRBAYCAN TORPAĞIDIR"

İkinci Qarabağ müharibəsinin nəticələrinə əsasən, imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata uyğun olaraq Xocalı şəhəri Rusiya Sülhməramlı kontingentinin nəzarəti altında olub. 19 sentyabr 2023-cü ildə aparılan lokal xarakterli antiterror əməliyyatları nəticəsində azad olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı. "Xocalıda, Xankəndidə, o vaxt hələ ki, azad edilməmiş digər şəhər və kəndlərimizdə separatçılar at oynadırdılar. Onlar hesab edirdilər ki, burada separatçılıqla əbədi məşğul olacaqlar. Halbuki bunun heç bir hüquqi, tarixi əsası yox idi. Xocalı qədim Azərbaycan torpağıdır. Mənfur düşmən soyqırımı törədəndən sonra burada qanunsuz məskunlaşma da aparmışdır. Bu da hərbi cinayət sayılır. Xocalının adını da dəyişdirməyə, bir hərbi cinayətkarın adına rəsmiləşdirməyə çalışırdılar. Ancaq hər şeyin vaxtı var və biz qayıtmışıq, həm Vətən müharibəsi, həm antiterror əməliyyatı xalqımızın gücünü, iradəsini, əsgər və zabitlərimizin qəhrəmanlığını bütün dünyaya sübut etdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin!" – deyə Prezident bildirib. Azərbaycan tarixi ədaləti bərpa edib və günahsız Xocalı qurbanlarının qisası döyüş meydanında alınıb. Artıq bu gün Xocalının qapısı üzümüzə açıqdır. Azərbaycan əzəli torpaqlarına sahibdir.

Artıq Xocalıda ədalətin təntənəsi yaşanılır, yeni bir dövrün başlanğıcı. Ərazi bütövlüyünü, suverenliyini təmin etmiş bir dövlətin müstəqillik tarixində ərazi bütövlüyü çərçivəsində baş tutmuş Zəfər Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində torpaqlarımızın erməni işğalından azad edilməsi tariximizə əbədi həkk olundu və əzəli yurd yerlərimizə sahib olduq. Xocalı yenidən qurulur.

Əlbəttə ki, bizlərə bu tarixi günləri yaşadan vətənin mərd oğulları, mübariz ruhlu oğullarıdır. "Onların qəhrəmanlığı, fədakarlığı sayəsində biz bu gün buradayıq" – deyən Prezident bildirib ki, onlar sinələrini qabağa verərək düşmənə elə bir sarsıdıcı zərbə endirmişlər ki, əminəm, bundan sonra Ermənistan heç vaxt Azərbaycana qarşı hər hansı bir hərbi təxribat törətməyə cəhd etməyəcək.

Bu gün Xocalı yenidən qurulur. Xocalı şəhərinin yenidən qurulması üzrə birinci mərhələ 167 hektar və 18 hektar olmaqla iki hissədən ibarətdir. Birinci mərhələdə 167 hektar ərazidə 140 fərdi ev, 48 kottec tipli ev və 9 binadan ibarət 110 evdə tikinti, təmir-bərpa və abadlıq işləri görülür. Bütün kommunikasiya xətləri yerin altına salınıb, ilk 50 evə birləşmələr verilib. Şəhər üzrə kommunikasiya işlərinin 90 faizi icra edilib. Həmçinin 18 hektar ərazidə yerləşən fin tipli 92 evdə isə tikinti, təmir-bərpa və abadlıq işləri həyata keçirilir. Bunlardan əlavə, Xocalı şəhərinin girişində - çay kənarında bulvarın salınması işləri davam edir. Bulvar ilə üzbəüz isə çarşı-bazar qurulur, iaşə obyektləri tikilir.

## 12 MİN NƏFƏRLİK ŞƏHƏR

Artıq Xocalının gələcək inkişafı ilə bağlı Baş planı da hazırlanıb. Baş Plana əsasən, ilk mərhələdə 12 min nəfərlik şəhər planlaşdırılır. Eyni zamanda, ehtiyat üçün də ərazilər saxlanılır.

Xocalı bir regional mərkəz kimi davamlı surətdə inkişaf etməlidir. Burada həm bütün zəruri sosial, inzibati xidmətlər, mədəni mühit yaradılacaq, ticarət, ictimai iaşə fəaliyyətləri üçün geniş imkanlar, təbiətlə daim təmasa imkan verən rekreasiya əraziləri demək olar ki, bütün şəhər boyu, yaşıl məkanlarla əlaqələndirilmiş komfortlu yaşayış əraziləri nəzərdə tutulub. Əsasən 3-5 mərtəbəli yaşayış binaları, həyətyanı sahələrə malik fərdi evlər.

Şəhər mühitini canlandıran yeni nəqliyyat qovşağı vacib rol oynayacaq, mobilliyi artıracaq. Bu, həmçinin şəhərdə iqtisadiyyatın, sahibkarlığın inkişafına da xüsusi təkan verəcək. Bütün bunlar dinamik inkişafı təmin edən iqtisadi şaxələndirməyə imkan verəcək. Burada çox zəngin kənd təsərrüfatı torpaqları olduğunu nəzərə alaraq, şəhər daxilində kiçik aqropark yaradılması təklif olunur. Müxtəlif tikinti materialları istehsalı, yüngül sənaye, qida sənayesi obyektləri yaradılacaq, nəqliyyat və logistika ənənəvi əsas sektor olaraq inkişaf etdiriləcək. Xocalı müasir şəhər olacaq.

Xocalının Baş planını hazırlayarkən ilk növbədə, onun regiondakı mövqeyi də nəzərə alınıb. Bura strateji mövqeyə malikdir. Beynəlxalq hava limanı, respublika əhəmiyyətli avtomobil yolu, hazırda layihələndirilən, tezliklə çəkiləcək dəmir yolu və s. bütün bunlar Xocalının gələcəyini artıq bir qovşaq kimi, nəqliyyat qovşağı və logistika mərkəzi kimi şərtləndirir.

Eyni zamanda, strateji əhəmiyyətə malik Ağdam, Xankəndi şəhərlərinin, mədəniyyət paytaxtımız Şuşa şəhərinin çox yaxında yerləşdiyini də nəzərə alaraq, regionla inteqrasiyasına xüsusi önəm verilib. Bu tərəfdə Xocalı şəhərinin tünd qəhvəyi rənglə əvvəl mövcud olmuş sərhədləri göstərilib, 610 hektar təşkil edirdi. Hazırda isə 1300 hektara yaxın ərazi nəzərdən keçirilir.

Xocalı şəhərində orta təhsil müəssisəsi və uşaq bağçası da inşa olunub. Məktəbin qarşısında park, onun yanında isə sənətkarlar məhəlləsi salınıb. Həmçinin idman kompleksində tamamlanma işləri görülür. Kompleksdə şahmat, cüdo, güləş, gimnastika, stolüstü tennis, basketbol, minifutbol, badminton ilə məşğul olmaq üçün lazımi şərait yaradılacaq. "Abad, gözəl evlər, istirahət zonaları. O qədər gözəl təbiəti var ki, burada yaşamaq, yaratmaq hər bir insana xüsusi zövq verəcək. Siz də buna layiqsiniz".

***Zümrüd BAYRAMOVA***

SƏHLİYALI BS 1996
Halal Nemət 1000 Bərəkət Halal Nemət

31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü
və Yeni İl münasibəti ilə xalqımızı təbrik edirik.
Qoy qarşıdan gələn Yeni il
Vətənimizə sülh və əmin-amanlıq,
süfrələrimizə ruzi-bərəkət gətirsin!

BAYRAMINIZ MÜBARƏK!

Hörmətlə, "Səhliyalı" şirkətinin direktoru
Rövşən Səmədov

# "Hədiyyə vermək minnətdarlıq hissini ifadə etməyin güclü üsuludur"





***"Bayramlarda hədiyyələşməyin mənası və psixoloji aspektləri çoxşaxəlidir və insanlararası münasibətlərin təməlində duran dəyərləri əks etdirir". Bu sözləri SİA-ya açıqlamasında psixoloq psixoterapevt Orxan Şəfizadə deyib. O bildirib ki, bu ənənənin psixoloji tərəfləri aşağıdakı əsas aspektlərdə izah edilə bilər:***

1. Sevgi və dəyərin ifadəsi

Hədiyyələr emosional bir jestdir. İnsanlar bayramlarda yaxınlarına hədiyyə təqdim etməklə onların həyatında xüsusi bir yer tutduqlarını ifadə edirlər. Bu, şəxsiyyətlərarası bağları gücləndirir və sevgini konkret bir əməllə göstərməyə imkan yaradır.

2. Minnətdarlıq və diqqət hissi

Hədiyyə vermək minnətdarlıq hissini ifadə etməyin güclü üsuludur. Psixoloji olaraq insanlar başqalarına diqqət göstərdikcə özlərinin də dəyərli hiss etdiklərini anlayırlar. Bu, həm hədiyyə verən, həm də alan tərəfdə xoş emosiyalar yaradır.

3. Empatiya və qarşılıqlı əlaqə

Hədiyyə seçimi empatiya tələb edir. İnsanlar qarşı tərəfin zövqünü və ehtiyaclarını düşünərək hədiyyə seçir, bu da empatiya qabiliyyətini artırır. Bayramlarda hədiyyələşmə bu mənada sosial əlaqələrin dərinləşməsinə xidmət edir.

4. Şəxsi mənəviyyat və cəmiyyətlə bağlılıq hissi

Bayramlarda hədiyyə vermək şəxsiyyətin mənəvi tərəfini gücləndirir. Bu, həm ailəvi, həm də cəmiyyət səviyyəsində birlik və paylaşma duyğularını artırır. Hədiyyələşmə aktı insanda mənəvi doyanaq yaradır və sosial harmoniyanı gücləndirir.

5. Dopamin ifrazı və müsbət emosiyalar

Psixologiyada məlumdur ki, başqalarına bir şey vermək və onların sevincinə şahid olmaq dopamin ifrazını artırır. Bu da insanın özünü xoşbəxt və enerjili hiss etməsinə səbəb olur. Hədiyyə alan tərəfdə isə sürpriz faktoru müsbət emosional təcrübə yaradır.

6. Simvolizm və bağlılıq

Hədiyyələr çox vaxt müəyyən simvolik məna daşıyır. Bayramlarda təqdim olunan hədiyyələr ailə dəyərlərini, dostluq əlaqələrini və ya dini inancları simvolizə edə bilər. Bu, sosial və mədəni kodların qorunub saxlanılmasına xidmət edir.

Hədiyyələşmə yalnız maddi bir jest deyil, sevgi, diqqət, empatiya və paylaşma kimi əsas psixoloji dəyərlərin təzahürüdür. Bayramlarda hədiyyə vermək və almaq həm fərdi xoşbəxtliyi, həm də kollektiv bağlılığı gücləndirən mühüm bir ənənədir".

MÜNASİBƏT

***Söylü Ağazadə***

# Tanrıya açıq məktub- 6-cı hissə

## (fəlsəfi esse)

**əvvəli ötən saylarımızda**




Böyük Yaradan, Sənin qüdrətli enerjilərindən olan maddi təbiət artıq davam gətirməyib, bəşərin əməllərinin məntiqi nəticəsini- təbii fəlakətləri dalbadal göndərir üzərimizə. Şəxsən mənə və bir çoxlarına aydındır ki, ulu və müdrik dədələrimiz "nə əkərsən, onu da biçərsən" deyəndə heç də taxılı-filanı nəzərdə tutmayıblar. Təxminən 10 il bundan əqdəm, həmin bu Təbiət Cənub-Şərqi Asiya ölkələrinin böyük ərazilərində dəhşətli sunami ilə meydan sulayanda əsl fəlakət oldu. Bu insanlara son dərəcə xəbərdarlıq idi. Amma bu da bizə dərs olmadı.

Həmin fəlakət zamanı 100 minlərlə insan məhv oldu, 10 minlərlə ev xaraba qaldı, minlərlə şəhər və kənd yer üzündən silindi, amma... bir dənə də heyvanın burnu qanamadı! Axtarış-xilasetmə qrupları böyük əraziləri əhatə edən fəlakət zonasında bir heyvan cəsədinə belə rast gəlmədilər! Bu hadisədən sonra xeyli düşünmüşəm və belə qənaətə gəlmişəm ki, bu fəlakət ancaq insanlara aid idi və əməllərimizin layiqli cavabı idi

Yəqin ki, heyvanlara "baxan" tanrıçan xəlvətcə təbəələrinin qulağına pıçıldayıb ki, bu məsələ sizlik deyil, şələ-küləniz götürüb bir-iki günə çıxın aradan. Hadisənin şahidləri olan yerli sakinlərin dediyinə görə, sunamidən bir neçə gün əvvəldən bütün heyvanlar özlərini qəribə aparır və imkan tapan kimi materikin içərilərinə doğru kütləvi şəkildə miqrasiya edirmişlər. Lakin biz bundan nəinki nəticə çıxarmadıq, hətta bundan əvvəl və sonra baş verən nisbətən kiçikmiqyaslı təbii fəlakətləri belə saya salmadıq. Elə bildik ki, hər ölkədə bir Fövqəladə Hallar Nazirliyi yaratmaqla vəziyyətdən çıxacağıq.

Təbii fəlakətlərdən söz düşmüşkən, son vaxtlar bir qeyri-təbii tendensiya da müşahidə olunur ki, təbii fəlakətlər əsasən müharibə gedən və digər formalarda çox qan tökülən ərazilərdə, insan hüquqları kobud pozulan ölkələrdə baş verir.

Hamımız bilirik ki, fəlakətin iki forması var- təbii və süni. Son vaxtlar süni fəlakətlər də baş verir. Özü də bunların bir çoxu elə yerlərdə baş verir ki, adam lap məəttəl qalır. Məsələn, hər il dünyanın müxtəlif ölkələrindən Səudiyyə Ərəbistanı, İraq, Fələstin və İrandakı ziyarətgahlara minlərlə ziyarətçi gəlir. Və bunlar da deyilənə görə, bu ziyarətgahlara dini ayinlər keçirmək, ibadət etmək və digər məqsədlərlə üz tuturlar.

Amma nədənsə hər il oralarda xeyli süni fəlakətlər baş verir və yüzlərlə adam tələf olur. Gah adamlar tuneldə qalıb boğulur, gah Şeytana daşatma (?) mərasimində xəsarət alıb ölür, gah basabasda ayaq altda qalıb canını tapşırır, gah nəqliyyat qəzasına düşür, gah da terrorçular tərəfindən qanına qəltan edilir. Bu kimi şeylər nədən həmin yerlərdə baş verir, bizi bəzi həqiqətlərdən agah etsən olmazmı??

Yaratdığın canlı növlərinin hardasa 40 faizi onlardan biri (insan) tərəfindən kökü kəsilərək məhv edilmişdir. Təkcə son yüzildə meşələrin 50 faizini qırıb çatıblar, hər il də daha 80 min kv.km. meşə sahəsi yoxa çıxır. Planetin ağciyərlərini artıq məhv etmək üzrədirlər, meşələr qırılıb qurtarır. Yeməli bitkiləri süni dərmanlarla genetik modifikasiyaya məruz qoyublar, ərzaq rasionu süni "qidalar" üzərində qurulub və nəticədə dəhşətli mutasiya başlayır insan genində! Artıq ağacsız şəhərlər meydana gəlir, bağları-parkları, yaşıllıqları qırıb yerində daş göydələnlər ucaldırlar Böyük Xaliq.

Dünya xalqlarının çoxu acından, evsizlikdən, çarəsizlikdən məhv olmaqda ikən, Şeytan əlaltılarının başında durduğu dövlətlər bəşəriyyətin sərvətlərini hərbi arsenala sərf edirlər. Sonra da faydasız beynəlxalq təşkilatlar yaradıb bəyan edirlər ki, bəs biz bəşəriyyətin xoşbəxtliyi naminə hər şeyi etməyə hazırıq.

Bir reaktiv təyyarənin qiymətinə minlərlə ev, bir sualtı atom gəmisinin xərcinə minlərlə məktəb, bir nüvə raketinin əvəzinə minlərlə xəstəxana tikmək olmazmı? Bir ölkənin 1 trilyon dollara çatmaqda olan, 100-dən artıq kasıb ölkənin ümumi büdcəsindən çox olan hərbi büdcəsini aclıqdan və susuzluqdan əzab çəkə-çəkə ölməkdə olan milyonlarla insanın xilasına yönəltmək olamazmı? Bu sualların cavabını sorsan bəşərin rəhbərlərindən Cənab Sahibi-Küll

**Elçin Bayramlı**

---

# Keçmiş ərdən aliment tələb etmək olar?





AYDINLIQ GƏTİRİLDİ

"Azərbaycan Konstitusiyasına görə, ailə dövlətin xüsusi himayəsindədir. Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən valideynlər uşaqlarını saxlamağa borcludurlar". Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib. Onun sözlərinə görə, Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən valideynlər uşaqlarını saxlamağa borcludurlar: "Ailə Məcəlləsinə əsasən valideynlər uşaqlarını saxlamaq barədə saziş (aliment ödənilməsi barədə saziş) bağlaya bilərlər. Hətta aliment ödənilməsi barədə valideynlər arasında saziş olmadıqda və yaxud





valideynlər uşaqları saxlamadıqda, məhkəməyə bu barədə iddia verilmədikdə yerli icra hakimiyyəti orqanı uşaqlar üçün aliment tutulması barədə valideynlərə (onlardan birinə) qarşı iddia qaldırmaq hüququna malikdir.

Azərbaycan Respublikası Ailə Məcəlləsinin 85-ci maddəsində deyilir ki, Nikah pozulduqdan sonra keçmiş ərin (arvadın) aliment almaq hüququ var.

85.1. Aşağıdakı şəxslər nikah pozulduqdan sonra məhkəmə qaydasında buna zəruri vəsaitə malik olan keçmiş ərdən (arvaddan) aliment ödəməyi tələb etmək hüququna malikdirlər:

85.1.1. hamiləlik dövründə və ümumi uşaqlarının doğulduğu gündən 3 il ərzində keçmiş arvad;

85.1.2. 18 yaşınadək əlilliyi müəyyən edilmiş və ya 18 yaşına çatanadək əlilliyi müəyyən edilmiş 18 yaşından yuxarı orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş ümumi uşağa qulluq edən və maddi yardıma ehtiyacı olan keçmiş ər (arvad);

85.1.3. nikah pozulana qədər və ya nikah pozulduğu gündən bir il ərzində əmək qabiliyyətini itirən və maddi yardıma ehtiyacı olan keçmiş ər (arvad);

85.1.4. ər-arvad uzun müddət nikahda olmuşlarsa, nikah pozulduğu andan 5 il müddətindən gec olmayaraq pensiya yaşına çatan və maddi yardıma ehtiyacı olan keçmiş ər (arvad).

85.2. Alimentin miqdarı və nikah pozulduqdan sonra onun keçmiş ərə (arvada) ödənilməsi qaydası keçmiş ər-arvad arasındakı sazişlə müəyyən edilə bilər. Alimentin ödənilməməsi, məhkəmə qərarını icra edilməməsi cinayət və inzibati məsuliyyəti yaradır. Cinayət Məcəlləsinin 306.1-ci maddəsinə əsasən, qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsini, hökmünü, qərardadını, qərarını və ya əmrini qərəzli olaraq icra etməmə və ya həmin məhkəmə aktlarının icrasına maneçiliyə görə iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya üç yüz iyirmi saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır".

Fariz Əkbərov sözlərinə belə davam edib: "İnzibati Xətalar Məcəlləsinin 528 ci maddəsinə əsasən, məhkəmə və ya digər orqanların qərarlarının icrası ilə əlaqədar icra məmurunun qanuni tələblərinin yerinə yetirilməməsinə və ya icra məmuru tərəfindən müəyyən olunmuş müddətdə borclunu müəyyən hərəkətləri etməyə və ya müəyyən hərəkətləri etməkdən çəkinməyə məcbur edən icra sənədinin üzrsüz səbəbdən icra edilməməsinə görə fiziki şəxslər beş yüz manatdan min manatadək məbləğdə cərimə edilir və ya işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir ayadək müddətə inzibati həbs tətbiq olunur, vəzifəli şəxslər min iki yüz manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər üç min manatdan beş min manatadək məbləğdə cərimə edilir. İcra üçün təqdim edilmiş icra sənədinin itirilməsinə, onun vaxtında göndərilməməsinə və ya borclunun iş yeri və ya yaşayış yeri, onun gəlirləri və əmlak vəziyyəti haqqında dəqiq olmayan məlumat təqdim edilməsinə görə vəzifəli şəxslər min iki yüz manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir.

İnzibati və cinayət məsuliyyətinə cəlb edilmiş şəxs, cəzasını çəkdikdən sonra aliment ödənilməsini davam etdirməlidir. Məsuliyyətə cəlbetmə heç bir halda aliment öhdəliyini aradan qaldırmır. Aliment öhdəliyinin qəsdən yerinə yetirilməməsi şəxsin valideynlik hüququndan məhrum edilməsi üçün əsas ola bilər. (Ailə Məcəlləsinin 64.0.2)".

**Ayşən Vəli**

# Yek qərar, yek fikir: 5 qitədə 50 milyon

***Dilimizdəki "həmrəy" sözü "həmfikir", "yekdil" mənasını verir. Bu sözün özülündə birlik anlayışı dayanıb. Birliyin sütunları isə yekdil qüvvədən var olur. Bu gün dünyanın müxtəlif ölkələrində yaşayan, təqribi sayı 50 milyon nəfər olan azərbaycanlının 10 milyondan çoxu mühacirətdə yaşayır. Dünyanın 5 qitəsində məskunlaşan soydaşlarımızın siyasi, iqtisadi və sosial-mədəni fəaliyyəti yaşadıqları ölkələr, oradakı şərait, mənəvi dəyərlər kimi müxtəlifdir. Lakin onları birləşdirən bir amal var – bütöv və təhlükəsiz Azərbaycan. Biz bu bütövlüyü 44 günlük müharibədə tək ürək, tək bilək olan dünya azərbaycanlılarının timsalında bir daha gördük.***




*Vətən Müharibəsi həmrəy və yekdil azərbaycanlıların birgə qələbəsi idi*

## Naxçıvandan bütün dünya azərbaycanlılarına həmrəylik çağırışı

Dünya Azərbaycanlılarının Həmrəylik Gününün əsası 1989-cu il dekabrın axırlarında Naxçıvanda SSRİ-İran sərhədlərinin dağılması zamanı qoyuldu. Noyabr ayının 5-də qurultayın qəbul etdiyi qərarda 31 dekabr ularının ləğv edilməsini təmin etmək üçün deputat komissiyası yaradılsın.




gününün hər il geniş qeyd edilməsi zərurəti irəli sürüldü. 1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi. Bu barədə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 6 bənddən ibarət qərar qəbul etdi.

Qərarda qeyd olunurdu ki, 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Günü elan olunsun və hər il bayram edilsin. Həmin gün Naxçıvan Muxtar Respublikası ərazisində iş günü hesab edilməsin. 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Günü kimi bütün Azərbaycan Respublikasında rəsmi qeyd edilməsi üçün qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikasının Ali Sovetinə təklif verilsin. Naxçıvan Muxtar Respublikasının şəhər və rayon məclislərinə tapşırılsın ki, bayram günləri demokratik təşkilatların iştirakı ilə təntənəli mərasimlər hazırlayıb həyata keçirsinlər. Akademik Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinə, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan şöbəsinə, Azərbaycan Yazıçılar Birliyinin Naxçıvan vilayət şöbəsinə, Xalq Təhsili Nazirliyinə tapşırılsın ki, 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Gününə həsr olunmuş elmi konfrans keçirsinlər. Sərhəd çəpərlərinin bərpa edilməsi qanunsuz hesab edilsin və istehkam qurğ-

## 32 ildir ki, 31 Dekabr bizi birləşdirir

32 ildir ki, qeyd etdiyimiz 31 dekabr — Dünya Azərbaycanlılarının Həmrəylik Günü hazırda dünyanın 70-dən çox ölkəsində yaşayan azərbaycanlılar tərəfindən qeyd olunur. Həmrəylik günü Azərbaycan diasporu üçün xüsusi əhəmiyyətə malik tarixdir. Bu tarixin yaradılması ilə Azərbaycan xalqının birliyi, bütövlüyü uğrunda gördüyü çoxsaylı işlərdən daha biri ilə ömürlük tariximizə həkk olan Ümummilli Lider qürbətdə yaşayan soydaşlarımıza müraciətlərindən birində belə deyirdi:

"Dünya Azərbaycanlılarının Həmrəylik Gününün dövlət bayramı kimi qeyd edilməsi xalqımızın milli azadlıq mübarizəsinin məntiqi nəticəsi olaraq artıq xoş ənənəyə çevrilib. Qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, onu müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizəyə səfərbər edən həmrəylik günü hər bir azərbaycanlı üçün inam və ümid anıdır. Hal-hazırda dünyanın müxtəlif ölkələrində milyonlarla soydaşımız yaşayır, işləyir, fəaliyyət göstərir. Buna baxmayaraq, onların milli-mənəvi varlığını yaşadan yeganə bir dövlət var. Bu, müstəqil, suveren Azərbaycan Respublikasıdır. Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının əsasını da məhz Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, dininə, milli-mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət, onların daim qorunmasına, yaşamasına qayğı təşkil edir".

## 5 qitədə həmrəy olmaq

Dünyanın 5 qitəsində məskunlaşan soydaşlarımız Amerika qitəsinin Şimal, Mərkəzi və Cənub hissəsində daha çox məskunlaşıblar. Onların sayı Birləşmiş Ştatlarda 1 milyona, Argentinada 12 minə, Braziliyada 75 minə, Kanadada 170 minə, Meksikada isə 27 minə çatır. Amerika qitəsi ölkələrində Honduras, Qvatemala, Peru və digərlərində də soydaşlarımız yaşayırlar. Məlumatlara görə, Amerika qitəsində məskunlaşan azərbaycanlıların əksəriyyəti zaman-zaman İrandan miqrasiya edən soydaşlarımızdır. 1970-ci ildən etibarən Türkiyədən, 1991-ci ildən isə Azərbaycandan bir qisim soydaşımızın okeanın o tayına köçü baş tutub.

Statistik göstəricilərə görə, azərbaycanlıların sayı Türkiyədə və Rusiyada daha çoxdur, bu say milyonlarla ölçülür. Belarus, Ukrayna, Almaniya və Böyük Britaniyada yüzminlərlə soyadşımız məskunlaşıb, Norveç, İsveç, Macarıstan, Danimarka, İtaliya və Fransada da on minlərlə azərbaycanlı yaşayır. Azərbaycanlıların məskunlaşdığı ölkələrdən olan Avstriya, Polşa, Finlandiya, İspaniya, Albaniya, Portuqaliyada on mindən çox soydaşımız yaşayır.

## Vətən müharibəsində dünya azərbaycanlılarının həmrəyliyi



II Qarabağ Müharibəsi zamanı dünyanın hər tərəfindən Azərbaycan sədası eşidildi. Müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar orduya dəstək məqsədi ilə yardım topladılar, onlar dövlətinin, ordusunun yanında olduqlarını hiss etdirdilər. Ən ali vəzifəli azərbaycanlıdan ən az gəlirli azərbaycanlıyadək hər kəs bu yardıma öz payını əlavə etdi. Topladıqları yardımı Azərbaycana göndərənlər orduya dəstək məqsədi ilə xərclənməsini istədilər.

O vəsaitə Azərbaycan əsgərinin ehtiyacı olmasa, hər bir ehtiyacları ödənsə də, dövlət sadə vətəndaşların bu dəstəyini qəbul etdi. Bu, ölkəsindən, vətənindən uzaqda yaşayan azərbaycanlıların vəfa borcu idi. Əsgər payı bağlamalarda nələr yox idi ki? Təmizlik vasitələrindən geyimə, qidadan suyadək hər ehtiyac nəzərə alınmışdı. Xaricdəki azərbaycanlıların topladıqları vəsaitə alınan yardımlar gecə-gündüz yol kənarlarında dayanıb orduya gedən hərbi avtomobilləri yola salan gənclər tərəfindən hərbi maşınların yük yerinə yığıldı. Sərhədyanı bölgələrdə yerləşən rayonların, kəndlərin əhalisi cəbhəyə qida, qarpız-qovun daşıdılar. Əsgər, arxasında 50 milyonluq Azərbaycanın varlığını, həmrəyliyini hiss etdi, daha əzmlə, daha cəsarətlə döyüşdü.

Dünya azərbaycanlılarının həmin günlərdə hiss etdiklərini Prezident İlham Əliyev belə dilə gətirir: "Əminəm ki, indi dünya azərbaycanlıları bu bayramı ruh yüksəkliyi ilə qeyd edirlər. Çünki mən bilirəm ki, bu işğal dövrü və işğalla bağlı olan məsələlər xaricdə yaşayan azərbaycanlılara da böyük əzab-əziyyət verirdi. Çünki ermənilərlə müxtəlif ölkələrdə ünsiyyətdə olarkən onların təkəbbürlü baxışları əminəm ki, dünya azərbaycanlılarını incidirdi. İndi isə vəziyyət tam fərqlidir. Biz heç vaxt təkəbbürlü olmamışıq, amma hər zaman öz gücümüzü hiss etmişik. Bu gün əminəm ki, dünya azərbaycanlıları yaşadıqları bütün ölkələrdə başı dik, alnıaçıq, üzüağ gəzirlər və öz tarixi vətəni olan Azərbaycanla haqlı olaraq fəxr edirlər".

Ötən il, 22 aprel 2022-ci ildə Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı – Zəfər Qurultayı işə başlayanda da Prezident İlham Əliyev ilk qurultayı da xatırlamışdı. O, 2001-ci ildə, Bakıda keçirilən Dünya azərbaycanlılarının I Qurultayı barədə xatirələrini də bölüşmüşdü. O, Ümummilli Liderin vəsiyyətini reallaşdırdığı üçün, dünya azərbaycanlılarını Bütöv Azərbaycanın mədəniyyət beşiyi Şuşaya toplaya bildiyi üçün qürur duyduğunu dilə gətirmişdi.

***Lalə Mehralı***

*Dünyada qlobal iqlim dəyişikliyi baş versə də, fəsillər illər öncəki donunu bir-birinə ərməğan etsələr də, lakin hər bir mövsümün adı çəkiləndə gözlər önündə onun özünəməxsusluğu canlanır. Bir anlığa həmin fəslə qonaq olur, gözəlliklər əhatəsində dünyada biz insanların səhvi ucbatından yerləri dəyişən, zamanından, məkanından uzaqlaşdırılan fəsillərin gerçəyini yaşaya bilirsən.*



# QIŞ: bəyaz xatirələr







Artıq həyatımıza qış fəsli daxil olub. Aylardan bəri birgə dünyamızı bölüşdüyümüz payızı yola salıb, qışı qarşılamışıq. Düzdür, bəlli səbəblərdən payız da özünəməxsusluqlarını olduğu kimi göstərə bilmədi. Amma yenə də payız idi, gəldi və getdi. Yayın yaşılını sarıya çevirib, istisini sazağına qatıb "mən payızam" deyə bildi.

Payızın son ayı qışdandır, deyirlər. İllər öncə bu deyimi payızın son ayında-dekabrda, hələ bir qədər də əvvəl-noyabrın ortalarından etibarən görə bilirdik. Hələ qışa bir ay qalmış onun ağ rəngini, təbiəti bəyaza bürüyən donunu görə bilirdik. Qış, necə deyərlər, payızdan qapını kəsirdi. İnsanların qayğıları başlayırdı, evlərdə sobalar qurulurdu.

Qış... Bu mövsüm həyatımıza gələrgəlməz, gözlər önündə onun ağappaq rəngi canlanır. İndi qar az yağsa da, lakin qışın bir rəngi var, o da bəyazdır. Bu bəyazın fonunda da qışın təəssüratları formalaşır. Odur ki, qış təbiətin bəyaz rənginə çevrilib düşüncələrimizdə. Uşaqlığımızın fəsli olub qış. Bu gün isə xatirələrimizdir. Elə bu gün qışdan, bir az da xatirələrimizdən danışaq...

### Təbiətin ağ rəngi...

Bütün fəsillər gözəldir, bəli. Hər birinin də öz rəngi var. Yazımız-yayımız yaşıl, allı-güllü, payızımız sarılı-qızılı rənglərlə könülləri oxşadığı kimi, qış da bəyazı ilə ruhları oxşayır. Qışın gözəlliyi qardır, hər tərəfin qarla örtülməsi, təbiətin qış yuxusuna dalmasıdır. Müasir dünyamızda iqlim dəyişikliyi səbəbindən bu bəyaz rəngə çox halda həsrət qalsaq da, lakin rayonlarımızda, kəndlərimizdə bu gözəlliklərlə qarşılaşmaq olur hələ də.

Qar yağır, bütün təbiət bəyaz donunu geyinir. Ətrafda hər yer, hər şey ağappaq görüntülərlə ruha bir hüzur, sakitlik bəxş edir. Bu gözəlliklər fonunda isə bir təmizlik var. Sanki dünyanın bütün çirkablarının üstünü örtür qar pərdəsi. Heç olmasa "çox yox, bir-iki ay görsənməyin",- deyir. Və sanki onu diktə edir ki, kaş ki dünyamız bax beləcə, ağappaq olardı, tər-təmiz, pis əməllərdən kənar olardı. Kaş ki dünyamızda həmişə qış olardı, bəmbəyaz qış...

Təbiətin necə də gözəl mənzərəsidir qış. Ağacların qar donunu görməyən olmayıb yəqin ki... Baxırsan ki, gecədən yağan qar ağacların əyninə gecədən-səhərədək elə bir don biçib ki, necə deyərlər, yüz ölç, bir biç, misalı. Səhər hava işıqlaşınca füsunkar bir mənzərə açılır gözlər önündə: adamlar soyuqdan sanki gizlənmişlər, evlərə çəkilmişlər, onlar öz yerlərini gəzdikləri, oraya-buraya gedib-gəldikləri yollarda, park-xiyabanlarda, həyətlərdə ağaclara vermişlər. Ağaclar sanki çönüb ağac adam olmuşlar, geyimli-kecimli, şallı-yaylıqlı, papaqlı, əlcəkli, köynəkli, ətəkli adamlar. Lakin yerimirlər, dayanıblar. Qışın soyuğunun sükutuna qərq olub, xəyala dalıb bu dünyanın gərdişini fikirləşirlər.

Səhərüzü gündoğandan çox çətinliklə boylanan günəş ətrafa zərrin şüalarını saçdıqca, onun qarla yaratdığı harmoniya qarşısında heyran qalır insan. Bu zaman yer də, göy də bir-birinə sanki bir parlaqlıq ərməğan edir. Hər yer parıldayır, ulduzcuqlar ətrafda rəqs edir. "Bəyaz" adlı simfoniya səslənir uzaqlarda, bu hüzura hüzur qatan, sükutu yaran bir simfoniya..

Axşama doğru bu bəyazlar gündüzkü pambıq yumşaqlığını itirməyə başlayır, günəşin qüruba enməsi ilə qarın da yumşaqlığını alıb ona gecənin sərtliyini bəxş edir. Artıq səhəri gün dünən yağan qarın yumşaqlığından əsər-əlamət qalmır. Onun "xışıltı" nəğməsi başlayır. Səhər-səhər pəncərələr önündən işinin-gücünün ardınca yollanan insanların addımı ilə səslənən bu nəğmə içəridəkiləri yuxudan oyadır...

Budur, qarşında yeni bir qış tablosu var... Hər tərəf bəmbəyaz buzdur. Evlərin daş örtüyündən sallanan buz parçaları, dünən harada necə vardısa, eləcə də donub qalan qar bu gün başqa bir gözəllik mənzərəsinin "müəllifidir"... Hər yer bəmbəyaz, hər tərəf ağappaq... Tək bir rənglə min bir naxış, doyumsuz mənzərələr. İlahinin yaratdığı gözəlliklərdən biri... Budur, təbiətin bəyaz rəngi...

### Qışın qarı, yazın barı

Ata-babalarımızın tarixin sınaqlarından, zamanın süzgəcindən süzülüb gələn deyimlərindən biri: qışın qarı, yazın barı... Bəli, qışda qar nə qədər çox yağarsa, yazda su və məhsul bir o qədər bol olar. Buna görə də hələ bineyi-qədimdən ata-babalarımız qışda qarın bol olmasını arzulayıb. Qar çox yağanda, "hə, bu yaz bolluq olacaq",- deyiblər.

Təəssüf olsun ki, dünyada qlobal iqlim dəyişikliyi ilə əlaqədar olaraq insanlar yağışa-qara həsrət qalıblar. Bu da yaz və yay aylarında quraqlıqla nəticələnir. Qar həm bol su, həm də bitki örtüyünün mühafizəçisidir. Yazlıq-payızlıq əkin sahələrini əgər qışın şaxta-soyuğundan qar örtüyü qoruyub, onu yaza barlı-bəhərli əkin sahəsi kimi təhvil verirsə, bu qar örtüyü həmçinin yazdayayda su təminatıdır.

Qədim əkinçilik mədəniyyətinə sahib olan xalqımızın bu mədəniyyəti formalaşdıra bilməsi səbəbindən də bu cür deyimlər yaranıb. Və bu deyimlər hər qış gələndə insanların qar yağması, həm də bol yağması arzularının yaranmasına səbəb olub. Son illər qışda lazımi qədər qar yağmaması təbii ki, kənd təsərrüfatı işlərində də problemlər yaradıb. Kənd yerlərində zəhmət adamlarımız var ki, su çatışmazlığı üzündən əkin sahələri məhv olur, bütün zəhməti hədər gedir və ya nəzərdə tutduğu məhsulun heç dörddə bir hissəsini götürə bilmir.

Tək qar yox, yazda, payızda yağışın normal səviyyədə olmaması da təsərrüfat işlərində çətinliklər yaradır. Elə burada hələ bir neçə il öncəyədək yağışın yağması üçün insanların kəndlərdə "müsəlla" deyilən bir dini ayini də yerinə yetirdiklərini xatırlayıram. Kənd camaatı bir yerə toplanır, düzənliklərə, dağlara doğru yollanır, dualar oxuyur, Allahdan yağış yağmasını diləyir. Deyirlər ki, müsəllaya çıxmışıq. Qışın həyatımızda olduğu bu günlərdə qoy arzumuz bol qar yağması olsun. Qar yağsın ki, bol suyumuz və məhsulumuz olsun, insanların zəhmət nəğməsini dinləyə bilək.

### Qış uşaqlığımız, xatirələrimizdir...

Nə qədər fərqlidir o dövrlə bu dövr. Bütün hər şey kimi, qış da, onun əyləncələri də xatirələrə çevrilib. Qış uşaqların ən çox sevdiyi fəsil idi illər öncə. Çünki qış tək fəsil olaraq gəlmirdi, həm də onların oyun yoldaşı kimi həyatlarına qonaq olurdu.

Qar yağırdı, bununla əyləncələr başlanırdı. Xizəklər işə düşürdü, papaqlar, şərflər, əlcəklər, rezin uzunboğaz çəkmələr çıxırdı dolablardan. Elə ki, məktəbdən qayıtdıq, bir tikə çörək yeyər-yeməz düşürdük həyətə, xizəkləri götürüb sürməyə yollanırdıq. Nə yorulmaq, nə üşümək bilirdik. Evdən çağıran, "ay bala, evə gəlin",- deyən olmasaydı, qətiyyən gəlmək fikrimiz olmazdı. Gecəni də qarın bəyazında oynayardıq...

Qar topu oynayırdıq, bir-birimizi yerə yıxıb qarın içərisində yuyurduq. Əlcəklərimiz, pal-paltarımız, cırılan çəkmələrin içərisində corablarımız tamamilə su olurdu. Bizi evə çağırırdılar. "Ey, niyə qoymursunuz oynayaq",- deyib könülsüz gedirdik. Gedən kimi də pal-paltarımızı, əlcəkçəkmələrimizi sobanın kənarına düzürdük ki, dərs oxuyana, yemək yeyənədək qurusun ki, yenə qaçaq həyətə.

Yanaqlarımız bu bəyazların içərisində al-əlvan olurdu. Soyuğun təsiri ilə allanırdı üzümüz. O qədər ora-bura qaçırdıq ki, elə bil bədənimizdə soba yanırdı. "Ay bala, siz üşümürsüz, bir evə gəlin" deyiləndə tərin içində onlara cavab verirdik ki, istidən ölürük, üşümək nədir.

Yıxılırdıq, qalxırdıq... Uşaqlarla zarafatımız bəzən dalaşmaqla nəticələnirdi. Ürəyimiz dözmürdü, tez də barışırdıq. Qar yeyirdik, əlimiz çatan yerlərdən buzları qoparıb sorurduq. Xəstələnirdik də. İstiliyimiz qalxırdı, lakin sağalan kimi vaxtı fövtə vermək yox idi. Həmin andaca əyinbaşımızı geyinib qaçırdıq bəyazlara doğru.

İndi o bəyazlar bəyaz da xatirələrə çevrilib. Həmin xatirələr o qədər tərtəmiz, ülvidir ki, xatırladıqca insana mənəvi zövq verir. Çünki heç bir qüvvə, təsir o bəyazlığa xələl gətirə bilməmişdi. Bu səbəbdən də qış bizim ən gözəl uşaqlığımız, unudulmaz xatirələrimizdir.

***Mətanət Məmmədova***

# Sahibkarlığın inkişafına dövlət dəstəyi







***Ölkəmizdə sağlam biznes mühitinin daha da əlverişli olmasına real şərait yaradıb. Sahibkarlara ayrılan diqqətin nəticəsidir ki, onlara güzəştli kreditlər verilir, fermerlərə subsidiyalar ayrılır ki, bu da ölkədə sahibkarlığın inkişafına münbit şəraitin olduğunu əks etdirən amillərdir. Azərbaycan Prezidenti İlham Əliyevin "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 3 mart 2014-cü il tarixli Fərmanı ölkədə sahibkarlığın inkişafında yeni mərhələ oldu və sahibkarlığın inkişafı üçün geniş imkanlar açmış oldu.***



Həyata keçirilən tədbirlərin, reallaşan dövlət proqramlarının davamı olaraq, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" məlum Sərəncamı ölkəmizdə əhalinin məşğulluq imkanlarının artırılmasına yönələn kompleks tədbirlər sırasında əhəmiyyətli Sənəddir. Sərəncam aztəminatlı ailələrin məşğulluğuna və əmək potensiallarının reallaşdırılması yolu ilə gəlirlərinin artmasına, əlavə iş yerlərinin yaradılmasına, eləcə də kiçik və orta sahibkarlığın inkişafına geniş imkanlar yaratmış oldu. Azərbaycanda məhz dövlət səviyyəsində və bütün ölkəni əhatə edə biləcək şəkildə, geniş formada özünüməşğulluq proqramı icra olunur. Bu sahədə görülən tədbirlər ölkədə ailə biznesinin genişlənməsində, nəticə etibarilə sosial-iqtisadi inkişaf proseslərində vətəndaşların fəal iştirakının təmin olunmasında, kiçik və orta sahibkarlığın inkişafında növbəti irəliləyişlərə əsas yaradır.

Qeyd edək ki, Azərbaycan Prezident Cənab İlham Əliyevin 23 sentyabr 2016-cı il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "ABAD" publik hüquqi şəxsin yaradılması bu sahədə mühüm addımların atılmasında əhəmiyyətli rol oynadı. Sosialyönümlü layihələr həyata keçirən "ABAD" (Ailə Biznesinə Asan Dəstək) mərkəzləri rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılması yolu ilə əhalinin məşğulluq səviyyəsinin artırılmasına yönəlib. "ABAD" publik hüquqi şəxsin yaradılmasında məqsəd kiçik və orta sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına və rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək vermək məqsədi ilə sosialyönümlü layihələrin həyata keçirilməsidir. Layihələrə cəlb olunan insanlar müəyyən müddətdən sonra heyvandarlıq, quşçuluq, arıçılıq, bağçılıq, tərəvəzçilik (istixana), pərakəndə satış kimi istiqamətlər üzrə uğurlu şəkildə özünməşğulluq fəaliyyəti qurublar.

Əhalinin məşğulluq imkanlarının artırılması, bölgələrdə sosial infrastrukturun yaxşılaşdırılması, sosial cəhətdən həssas əhali təbəqələrinə dövlət qayğısının artırılması yönündə həyata keçirilən tədbirlər insanlarda məmnunluq yaradır. Ailə biznesini qurulması və inkişafı da sosialyönümlü layihələr sırasında uğurlu hesab olunur. Təbii ki, bunun böyük nəticələri var.

"Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamının yüksək səviyyədə icrası və özünüməşğulluq fəaliyyətinin təşkili ilə əlaqədar müvafiq normativ-hüquqi bazanın formalaşdırılması istiqamətində ardıcıl işlər görülüb. Bu gün ailə təsərrüfatlarına, kiçik və orta sahibkarlara dəstək layihələrinin həyata keçirilməsi sağlam biznes mühitini yaradıb. Təbii ki, bu da fərdi təsərrüfata sahib olan iştirakçılar onların özünüməşğulluğunun təmin olunması, ailə gəlirlərinin artırılması, ümumən biznes imkanlarına malik olmaları üçün yaradılan şərait onlarda məmnunluq hissini yaradır.

## QADINLAR VƏ GƏNCLƏR ARASINDA İŞSİZLİK MİNİMUM SƏVİYYƏYƏ ENDİRİLƏCƏK

Məlumdur ki, Azərbaycan Respublikasında mövcud demoqrafik meyillərə və inkişaf perspektivlərinə, ölkənin müəyyən olunmuş iqtisadi prioritetlərinə əsaslanmaqla səmərəli məşğulluğun təmin edilməsinə yönəldilmiş uzunmüddətli dövlət məşğulluq siyasətinin formalaşdırılması məqsədilə Azərbaycan Prezidenti Cənab İlham Əliyevin Sərəncamı ilə "2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" təsdiq edilib. Sözügedən Strategiyaya əsasən, iqtisadiyyatda rəsmiişləyənlərin qeyri-kənd təsərrüfatı sahəsində ümumi məşğul əhaliyə nisbətini 2030-cu ilədək 80 faizə çatdırmaq nəzərdə tutulub. 2030-cu ilədək işsizliyin səviyyəsinin 4 faizə, o cümlədən qadınlar və gənclər arasında işsizliyi minimum səviyyəyə endirilməsi nəzərdə tutulub. Yüksək əlavə dəyər yaradan və çox əmək sərf olunan sahələrə diqqət yetirməklə, iqtisadi məhsuldarlığın daha yüksək səviyyəyə qalxmasına nail olmaq və 2030-cu ilədək əmək məhsuldarlığını 2 dəfəyə qədər artırmaq nəzərdə tutulub. 2030-cu ilədək əmək bazarında mövcud olan bütün prioritet peşələr üzrə peşə standartlarını hazırlamaq, onların müntəzəm yenilənməsi mexanizmini yaratmağa nail olunacaq.

Məşğulluğun, qeyri-neft ixracının artırılması və digər strateji məsələlərdə özəl sektor həlledici rola malikdir. Azərbaycanda azad rəqabət mühitinin təkmilləşdirilməsi, inzibati prosedurların sadələşdirilməsi, vergi güzəştləri və subsidiyalar, real sektora maliyyə dəstəyi və digər tədbirlər həyata keçirilir. Bunun nəticəsi olaraq ötən dövr ərzində ölkədə biznes fəaliyyəti geniş miqyas alıb. Azərbaycanın iş adamları xarici ölkələrdə həyata keçirilən layihələrdə də fəal iştirak edir, müxtəlif sahələrə investisiya yatırır, etibarlı tərəfdaş kimi tanınırlar. Hazırda ölkədə sahibkarlıq fəaliyyəti ilə aktiv məşğul olanların sayı 683 mindən çoxdur. Özəl bölmənin ÜDM-də payı 83,5%, məşğulluqda payı isə 78%-ə yaxındır.

## DÖVLƏTİN GÜZƏŞTLİ KREDİTLƏRİ

Statistik məlumatlara əsasən, 2003-2022-ci illər ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən sahibkarlıq subyektlərinin 42.703 investisiya layihəsinin maliyyələşdirilməsinə 2,83 milyard manat güzəştli kredit verilib.

Maliyyələşdirilmiş layihələr hesabına 178 mindən çox yeni iş yerinin açılması imkanı yaranıb.

Bakı və Abşeron iqtisadi rayonu istisna olmaqla, ayrılmış güzəştli kreditlərin 62,2%-i (1,76 milyard manat) regionların payına düşür. Kreditlərin 50,7%-i kənd təsərrüfatı məhsullarının istehsalına, 49,3%-i isə müxtəlif növ sənaye məhsullarının istehsalı, emalı, o cümlədən aqrar məhsulların emalı və digər sahələrin inkişafına yönləndirilib.

Sahibkarlıq subyektlərinin dövlətin güzəştli kreditlərinə əlçatanlığını asanlaşdırmaq üçün tələb olunan sənədlərin sayı minimuma endirilib, sənədlərin notarial təsdiq olunması şərti ləğv edilib və 200 min manatadək kreditlər üzrə biznes plan tələbi aradan qaldırılıb. 2018-ci ildə isə güzəştli kreditlərin illik faiz dərəcəsi 5%-ə endirilib. Onu da vurğulayaq ki, sahibkarlıq fəaliyyətinə yersiz müdaxilələrin qarşısının alınması məqsədilə, bir sıra hallar istisna olmaqla, yoxlamalar 2015-ci ildən 1 yanvar 2024-cü il tarixinədək dayandırılmışdı.

Pandemiya dövründə sahibkarlara göstərilən dəstək dövlətin daim sahibkarların yanında olduğunun göstəricisidir. Bu tədbirlər sahibkarların iqtisadi fəallığının bərpası və artmasına, iqtisadi inkişafın sürətlənməsinə imkan verib. Bu, regionda ÜDM-ə nisbətdə ən böyük dəstək paketi idi. Pandemiya dövründə maliyyə dəstəyi almış sahibkarların sayı 132 mindən çox, ümumi ödənilmiş maliyyə vəsaitinin həcmi isə 364 mln. manata yaxın olub. Sahibkarlara həcmi 115 milyon manatdan çox olan vergi güzəşti paketi təqdim edilib. Bununla yanaşı, pandemiyanın təsirlərindən zərər çəkən sahibkarlar üçün dəyəri 1,5 milyard manat olan kredit-zəmanət və mövcud kredit portfeli üzrə faizlərin subsidiyalaşdırılması mexanizmlərini xüsusilə qeyd etmək lazımdır. Sahibkarların işinin sadələşdirilməsi, onlara dəstək mexanizminin artırılması dövlət əmlakının icarəyə verilməsi sahəsində də həyata keçirilib. Göründüyü kimi ölkəmizdə son illər aparılan sosial islahatlar, əmək bazarının inkişafı, aktiv məşğulluq proqramlarının genişləndirilməsi üçün atılan addımlar uğurlu nəticə verir.

Görülən tədbirlər deməyə əsas verir ki, Azərbaycanda ardıcıl həyata keçirilən islahatlar nəticəsində bütün istiqamətlərdə olduğu kimi sosial-iqtisadi sahədə də uğurlu nəticələr əldə edilib, sahibkarlığın inkişafı istiqamətində də bir sıra önəmli addımlar atılıb.

***İlham ƏLİYEV***



# İctimai və dövlət maraqlarının müdafiəsi vacibdir

***İctimai və dövlət maraqlarının müdafiəsi məsələləri daim öz aktuallığını qorumaqdadır. Çünki ictimai və dövlət maraqlarının müdafiəsi hər bir cəmiyyət üçün vacib hesab olunur və bu səbəbdən də hər bir cəmiyyətin başlıca məqsədlərindən sayılır. Elə bizim ölkəmizdə də ictimai və dövlət maraqlarının qorunmasının cəmiyyətimizin başlıca məqsədlərindən sayılması, öz aktuallığını qoruması və vacib hesab olunması bu baxımdan başadüşüləndir.***

Yaxşı bilirik ki, hər bir cəmiyyəti təşkil edən fərdlərin rifahının ifadə olunduğu, individual mahiyyəti ümumi anlayışa yönləndirən və çoxluğun marağını üstün sayan məhz ictimai maraqlardır. Məhz bu baxımdan da ictimai maraq fərdi maraqlardan əsaslı şəkildə fərqlənir. Ümumiyyətlə, ictimai maraqlar qətiyyən heç fərdi maraq anlayışı ilə əlaqələndirilməməlidir də. Unutmaq lazım deyil ki, müasir cəmiyyətlərdə bu məfhumun daha geniş və çoxşaxəli anlam kəsb etməklə, dövlət-vətəndaş münasibətlərinə birbaşa təsir gücünə malik olması da təsadüfi deyil. Elə o da təsadüfi deyil ki, ictimai maraqları tənzimləyən, müdafiə edən məhz dövlətdir və təbliği də, müdafiəsi də hökumət və onun strukturları tərəfindən sığortalanır.

Sevindirici haldır ki, Azərbaycan cəmiyyəti ictimai maraq və dövlət marağı məfhumlarının mahiyyətini dərk edən, bu mövqeyi ictimai, siyasi münasibətlərdə və dövlətlə əlaqələrində nümayiş etdirməyi bacaran, formalaşmış yetkin bir cəmiyyət sayılır. Qürur hissi ilə qeyd edə bilərik ki, məhz buna görə də cəmiyyətimizi intellektual əsaslarda formalaşmış modern bir cəmiyyət kimi xarakterizə olunmaqdadır. Hər kəs çox yaxşı bilir ki, Azərbaycan Respublikasında dövlət maraqları, ictimai və milli maraqların təmin olunması hər zamankı kimi prioritet sayılır. "Bizim siyasətimizin təməlində dövlət maraqları, xalqla iqtidar arasında birlik dayanır", deyə bəyan edən cənab Prezident İlham Əliyevin bu fikirlərindən də görünür ki, ölkəmizdə həm dövlət mənafeyinə zərər gəlməyən, həm də ictimai maraqları təmin edən, ortaq maraqları müəyyənləşdirən, həmin maraqların üst-üstə düşdüyü ideal cəmiyyət formalaşıb. Ümumiyyətlə, Azərbaycanda milli maraqların xalqımızın fundamental dəyər və məqsədlərini, həmçinin insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial, eləcə də digər tələbatların məcmusu hesab olunduğuna bütün dünyada belə zərrə qədər də şübhə yoxdur.

Heç şübhəsiz ki, bizim ölkəmizdə dövlət və cəmiyyət maraqlarının məhz Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyasına əsaslandığı bəllidir. Cəmiyyət maraqları və fərdin mənəvi maraqlarının vəhdəti artıq azərbaycanlıları birləşdirən dəyərə çevrildiyi göz önündədir. Azərbaycançılıq ideologiyasına əsaslanan konsept bu gün də qüvvədədir və Ulu Öndərin layiqli davamçısının, cənab Prezident İlham Əliyevin ölkəmizdə dövlət və cəmiyyət maraqlarının mükəmməl vəhdətinə xüsusi önəm verdiyi də günümüzün reallığıdır. Ən böyük reallıq odur ki, Azərbaycan dövlətinin suverenliyinin, müstəqilliyinin möhkəmlənməsi üçün milli dövlət maraqlarla ümummilli maraqların üstüstə düşməsi böyük rol oynayır və önəmli şərt olaraq qəbul olunur.

İctimai və dövlət maraqlarının qorunması məsələsində inkişafa, irəliləyişə nail olmaq üçün hər bir tərəfin öz üzərinə düşəni yerinə yetirməsi önəmli şərt hesab edilir. Əgər dövlətimiz öz üzərinə düşəni artıqlaması ilə edirsə və bunun da hər birimiz şahidiyiksə, deməli, irəliləyiş və inkişaf naminə vətəndaşlar da öz üzərinə düşəni etməlidirlər. Xüsusən də vətəndaşlarımız ilk növbədə dövlətin yanında olmalı, dövlətin siyasətini dəstəkləməli, dövlətin müəyyənləşdirdiyi qanunlara əməl etməlidirlər və buna həssas yanaşmalıdırlar. Normalara, ələlxüsus da ictimai mənafeyə zərər vuracaq addımların atması qəbuledilməz sayılmalıdır. Necə ki, dövlətimiz ictimai asayişi təmin edir və maraqlarımızı qoruyur, biz vətəndaşlar da öz növbəmizdə vətənə bağlılığımızla öz töhvəmizi verməliyik. Hətta ölkə hüdudlarından kənarda yaşayan, xarici ölkələrdə məskunlaşan həmvətənlərimiz belə vətənimzlə, doğma Azərbaycanımızla əlaqədar bağlara sahib çıxmalıdırlar. Onlar özləri də Azərbaycana məxsus olan dəyərlərə sahib çıxmalı, həmin dəyərləri müdafiə etməli və bunun naminə birləşməli, birlik nümayiş etdirməlidirlər. Kimliyindən, hansı peşənin sahibi olmasından, harada yaşamasından asılı olmayaraq, ictimai və dövlət maraqlarının qorunmasını kontekstində hər bir azərbaycanlının üzərinə düşən məsuliyyət bəllidir və bilməliyik ki, hər birimiz bunun öhdəsindən gəlməliyik.

Bəli, hər birimizin ilk növbədə bilməli olduğu doğma Azərbaycanımız naminə, ictimai və dövlət maraqlarımızın qorunması naminə əlimizdən gələni əsirgəməmək kimi bir məsuliyyətimizin olmasıdır. Təbii ki, bunu daha yaxşı başa düşmək, daha yaxşı bilmək, ictimai və dövlət maraqlarının qorunmasının çox vacib olduğunu daha yaxşı dərk etmək üçün ölkəmizdə davamlı şəkildə maarifləndirmə işi aparılmalıdır və aparılır da. Məsələn, vətənpərvərlik ideologiyasının gənclər arasında təbliğatı istiqamətində mühüm addımların atıldığını və bunun nəticəsini də görürük. Təhsil ocaqlarında, xüsusən də orta və ali məktəblərdə azərbaycançılıq ideologiyasının təbliği, vətənpərvərlik ruhunda gənclərin tərbiyə alması, ictimai və dövlət maraqlarının qorunması barədə kifayət qədər təbliğat aparıldığını, maarifləndirmə işlərinin göründüyünü və bunun da nəticələrini görməkdəyik. Bizim hər birimiz artıq gördük və şahidi olduq ki, gənclərimizin, vətəndaşlarımızın vətənin ərazi bütövlüyü uğrunda dövlətin ətrafında birləşməsində bu təbliğat, bu maarifləndirmə, məhz azərbaycanlı gənclərin vərənpərvərlik ruhunda tərbiyə edilməsi böyük töhvələr verdi. Məhz ictimai və dövlət maraqlarına böyük önəm verməsi sayəsində, həmrəyliyimiz, birliyimiz sayəsində, rəşadətli Azərbaycan Ordusu məhz Müzəffər Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, uzaqgörənliyi, liderliyi və rəhbərliyi ilə ən qısa zamanda işğala son qoydu, torpaqlarımız işğaldan azad olundu. İctimai və dövlət maraqlarının qorunmasının nə dərəcədə vacibliyi bir daha özünü əyani şəkildə sübut etdi. Sübut olundu ki, məhz ictimai və dövlət maraqlarımızın, milli maraqlarımızın, mənafeləyimizin, dəyərlərimizin qorunması yolunda gənclərimiz canlarından, qanından keçdilər və bunu da bütün dünya ictimaiyyəti müşahidə etdi. Hazırda da bütün dünya ictimaiyyəti görür ki, Azərbaycanın Qarabağ iqtisadi rayonunda aparılan yenidənqurma, abadlıq işlərində xalq və dövlət birliyi ən yüksək səviyyədədir və bunun da bizim ümumi maraqlarımızın, ictimai və dövlət maraqlarımızın təmin edilməsi, qorunması üçün edildiyi gün kimi aydındır. Aydındır ki, ictimai və dövlət maraqlarının qorunması nə dərəcədə aktual, nə dərəcədə vacibdir...

**İnam Hacıyev**

TƏHLİL

***Yaşadığımız 2024-cü il iyirmi birinci yüzilliyin təqvimində tarixə qovuşdu. Dünyanın müxtəlif xalqları üçün ənənəvi bayrama çevrildiyi kimi, Azərbaycanda da insanların məişətinə daxil olan Yeni il yeni təqvimdir. Mənbələrə əsaslanıb vurğulayaq ki, bu bayramı ilk dəfə qədim çinlilər qeyd edib, amma bəzi mənbələrdə qədim germanların və romalıların adı ilə bağlayırlar. Hansı ölkənin adı ilə bağlı olmasından asılı olmayaraq, artıq tarixin müxtəlif dönəmlərində bu bayram dünya xalqlarının bayramına çevrildi. Hər bir ölkə özünəməxsus bir tərzdə Yeni ili qarşılayır.***







# Dünya Yeni ili necə qarşılayır?

Bu bayramın yaranmasının 25 əsrdən artıq tarixi var. İlin dəyişməsini bayram etmək adəti ilk dəfə Qədim Mesopotamiyada yaranıb. Eramızdan əvvəl IV minilliyin sonunda Şumer, Babilistan, Assuriya kimi bu günümüzə qədər gəlib çatan mədəni irsiylə hələ də bizi heyrətləndirən mədəniyyət mərkəzləri burada təşəkkül tapıb. Tarixçi alimlərin fikrincə, məhz həmin dövrdə burada Yeni ilin gəlişi ilk dəfə bayram edilib. Martın axırında Dəclə və Fərat çaylarında suyun səviyyəsi artanda, əkinbiçin işləri başlayarmış. İnsanlar yeni ilin gəlişini də elə o zaman qeyd etmişlər. 12 gün ərzində təntənəli mərasimlər davam edərmiş. Babilistan əsirliyində olan yəhudilər Yeni il bayramı ənənəsini babillərdən öyrənərək, sonradan onu yunanlara ötürüblər. Yunanlar vasitəsilə isə bu ənənə Qərbi Avropaya yayılıb.



## ƏN QISA GÜNDÜZ ƏN UZUN GECƏYLƏ NÖVBƏLƏŞİR

Başqa bir mənbəyə görə, Qədim Şərqdə hələ İran dövlətinin yenicə yaranmağa başladığı dövrdə iranlıların artıq təqvimləri var imiş. Onlar bilirmişlər ki, ilin bir günü var ki, həmin gün ən qısa gündüz ən uzun gecəylə növbələşir. Və bu gündən sonra həyatverici Günəş səmada get-gedə daha çox bərq vurur, təbiət oyanmağa başlayır və həyat cansıxıcı qış - yəni ölüm üzərində qələbə çalır. Qədim hindlilər və farslar müasir təqvimlə dekabrın 22-nə təsadüf edən həmin günü "Günəş qapısı" adlandırarmışlar. Sonralar həmin gün Günəş Tanrısı Mitranın doğum günü kimi qeyd edilməyə başlayır.

Əsrlər keçdi. Roma dövləti rəsmi olaraq xristian dövləti kimi tanındı. Və məlum oldu ki, İsa peyğəmbərin doğum günü də elə dekabrın son günlərinə təsadüf edir. Beləcə, bu bayram həm yeni ilin gəlişini, həm həyatın ölüm üzərində qələbəsini, həm də Milad gününü özündə birləşdirmiş oldu.



Yeni il bayramını al-əlvan, bərli-bəzəkli şam ağacısız təsəvvür etmək qeyri-mümkündür. Əlbəttə, bu şam ağacı təbii küknar ağacından olsa və yarpaqları ətir saçsa, daha gözəl olardı. Amma təbiəti qorumaq xatirinə süni şam ağacları ilə də keçirmək olar. Bəs Yeni il bayramında yolka bəzəməyin mənası nədir? Çoxları şam ağacları bəzəmək ənənəsini də xristian dini ilə əlaqələndirir. Əslində isə, həyat rəmzi olan şam ağacının bəzənməsi tarixi xristianlıqdan əvvəl başlayıb və hansısa bir dinlə bağlı deyil. Hələ miladdan çox-çox əvvəl qədim Misirin sakinləri dekabrın ən qısa günlərində yaşıl palma ağaclarını evlərinə gətirirdilər. Bu, həyatın ölüm üzərində qələbəsinin rəmzi idi. Romalılar isə əkin allahının şərəfinə evlərini yarpaqlarla bəzəyirdilər. Druidlər palıd budaqlarına qızıl almalar asıb qış bayramını qeyd edirdilər. Orta əsrlərdə qırmızı almalarla bəzədilmiş həmişəyaşıl ağaclar dekabrın 25-də qeyd edilən Adəm və Həvva bayramının rəmzi idi.

## STRASBURQDA YENİ İL GECƏSİ

Yeni ilin şam ağacı haqqında ilk yazılı məlumat XVI əsrə təsadüf edir. Həmin mənbələrə görə, o vaxt alman şəhəri olan Strasburqda Yeni il gecəsi həm kasıb, həm də adlı-sanlı zadəgan ailələrində küknar ağacları rəngli kağızlar, meyvələr və şirniyyatla bəzədilirmiş. Vaxt keçdikcə bu adət bütün Avropaya yayılır. Yeni dünyaya, Amerikaya yolkanı, burada məskunlaşan almanlar gətiriblər. 1851-ci ildə burada ilk dəfə təntənəli şəkildə yolka fənərlərinin yandırılması mərasimi keçirilib. O vaxtdan hər il Yeni il bayramında Ağ Evin qarşısında bu mərasim keçirilir. Beləcə, şam ağacı bütün dünyada məşhurlaşıb.

Dünyanın hər yerində bütün insanlar Yeni ili eyni ümidlərlə, xoş möcüzələr, yeni uğurlar, xoşbəxtlik arzusuyla gözləsələr də, bayramı hərə öz adət-ənənəsinə uyğun qarşılayır. Avropa ölkəsi olan Fransada Şaxta Baba Per Noel - yəni Noel ata adlanır. O, Yeni il gecəsi gəlir və evin balaca sakinlərinin başmağına hədiyyələr qoyur. Böyüklərsə, bayram günü daha çox yeyib-içməyi sevirlər. Fransanın şərab ölkəsi olduğunu nəzərə alsaq, vəziyyəti təsəvvür etmək olar. Bu ölkədə bayramın ən maraqlı tərəfi hədiyyələrdir. Amma burada bir qədər diqqətli olmaq lazımdır. Hər hədiyyəni hər adama vermək olmaz. Məsələn, bu bayramda qadının öz ərindən başqa kimdənsə hədiyyə olaraq, ətir qəbul etməsi yaxşı hal hesab olunmur.

Yeni il, həmçinin, Azərbaycanda da qeyd olunur. Şənliklər keçirilir, uşaqlar Şaxta Baba ilə Qar Qızın yolunu gözləyir. Əslində, yeni il təqvimin yenilənməsinə görə qeyd olunur.

## İTALİYADA UŞAQLARIN ŞAXTA BABALARI YOX, ŞAXTA NƏNƏLƏRİ VAR

Yeni ildə İsveçrədə insanlar bir-birinə



şam hədiyyə edirlər ki, bu da, dostluğun və sevincin rəmzidir. Bayram axşamı isə ailə başçısı - ata zibil atmaq bəhanəsilə evdən çıxır və Yul Tomten (Şaxta Baba) obrazında qayıdır və uşaqlara hədiyyələr paylayır. İtaliyada yeni ildə uşaqların isə Şaxta Babaları yox, Şaxta nənələri var. Onun adı Befan Nənədir. Bu ölkədə Yeni ili bərkdən qışqıraraq qarşılamaq adəti var. Ucadan danışmaq italyanlar üçün adi hal olsa da, Yeni il gecəsi onlar öz səslərinə tam sərbəstlik verirlər. Beləcə, onlar həm də köhnə illə vidalaşırlar. Əgər Yeni il bayramı ərəfəsində təsadüfən Roma küçələrindən keçsəniz, ehtiyatlı olun. Çünki pəncərələrdən atılan köhnə ev əşyalarına hədəf ola bilərsiniz. İtalyanlar hesab edirlər ki, Yeni ilin astanasında, bütün pis fikirlərdən və köhnə əşyalardan xilas olmaq lazımdır.

## BRİTANİYALILAR İLK QONAĞI BÖYÜK HƏYƏCANLA GÖZLƏYİRLƏR

Böyük Britaniyada bayram günü evdə ideal təmizlik və qanun-qayda hökm sürməlidir. Gecə düşərkən, ailənin başçısı illərin yerdəyişməsi üçün evin bütün qapılarını geniş açır. Daha sonra qapı bağlanır və evə ilk gələcək qonaq həyəcan və səbirsizliklə gözlənilir. İnanca görə, ilin necə keçəcəyi içəri girən adamın görkəmindən çox asılıdır. Qadınlar, sarışınlar və əsmərlər o qədər də arzuolunan deyillər. Ən uğurlu qonaq kürən kişi hesab olunur. Dəhşətli hadisə, çatmaqaş adamın içəri girməsinə qarşı isə, o dəqiqə ehtiyat tədbirləri görülür. Ocağa duz atılır, qapıdan xaç asılır. Gələn qonaq özüylə viski, şirin çörək və kömür gətirməlidir. Kömür ocağa atılır ki, Yeni ildə ailə ocağı daha gur yansın.

Yeni ildə İslandiyada kiçiklər öz valideynlərini xeyli təəccübləndirirlər. Bu balaca çoxbilmişlər Şaxta Babanın onlara göz qoymasından ehtiyatlanaraq, ay boyu özlərini yaxşı aparır, dəcəllik etmirlər. Əks halda bayram gecəsi sobanın yanına qoyduqları çəkmələrin içində kartof və ya bir parça kömür tapa bilərlər.

Almanlar Yeni il gecəsi saat 12-ni vurarkən, ovuclarında metal pul sıxaraq tullanırlar. İnanırlar ki, bunu etsələr, yeni il daha bərəkətli olacaq.

## MÜXTƏLİF KARNAVALLAR, BALLAR

Yeni il Rusiyada ən çox sevilən bayramdır. Uşaqlar yeni ildən hədiyyələr, böyüklər isə səadət və xoşbəxtlik gözləyir. Bu ənənənin əsası 300 il bundan əvvəl, Birinci Pyotrun əmri ilə qoyulub. Əmrdə, həmçinin, ağac bəzəmək də öz əksini tapıb. Məhz küknar ağacı 19-cu əsrin axırlarında dəbə minib.

Yeni il gecəsi süfrəyə mütləq müxtəlif yeməklər - salatlar, içkilər, piroqlar qoyulur. İnanca görə, süfrə nə qədər dolu və gözəl olarsa, qarşıdan gələn il də elə olacaq. Süfrənin ortasına mütləq odda qızardılmış donuz balası qoyulur. Çünki donuz ruslarda bolluq və var-dövlət simvolu kimi tanınır. Süfrəyə quş ətindən heç nə qoyulmur, hesab edilir ki, evdən xoşbəxtlik uça bilər. Xəmirdən müxtəlif heyvan fiqurları bişirilib, gələn qonaqlara paylanır. Yeni ili mütləq təzə paltar və ayaqqabıda qarşılayırlar ki, gələn il də həmişə təzə paltar və ayaqqabı almaq imkanı olsun. Yeni il qabağı hamı çalışır ki, bütün borcları qaytarsın, küsülülər barışsın. Evdən sınmış qab-qacağı atır, pəncərə və güzgülər parıldayana qədər silinir. Müxtəlif karnavallar, ballar təşkil olunur, hamı səhərə kimi rəqs edir.

Yeni il dünyanın müxtəlif qitələrdə qeyd olunur. Məsələn, Braziliyada Yeni il toplardan atılan atəşlərlə qarşılanır. Atəş səsi eşidəndə, hamı birbirini qucaqlayıb öpməyə başlayır. İnanırlar ki, həmin an sənə əziz olan birini öpməyə imkan tapsan, il xoşbəxtlik içində keçəcək. Yaponiyada isə bayram günü Budda məbədlərindəki bürünc zənglər 108 dəfə çalınır. Bu rəqəm təsadüfi seçilməyib. Yaponlar hesab edirlər ki, hər bir zərbə insan həyatını məhv etməyə qadir olan 108 ziyanlı ehtirasdan birini qovur. Bununla da, gündoğar ölkənin sakinləri Yeni ili təmiz ruhla qarşılayırlar.

## YENİ İLİN GƏLİŞİNƏ MANE OLAN ŞƏR QÜVVƏLƏR

Çində də bayram günü böyük səs-küy və atəşfəşanlıqla keçir. Bununla, çinlilər Yeni ilin gəlişinə mane olan şər qüvvələri qovduqlarını düşünürlər.Ən qəribə bayram hədiyyələrini isə eskimoslar bir-birinə bağışlayırlar. Bu, morjların və ağ ayıların buzdan yonulmuş fiqurlarıdır. Qrenlandiyadakı hava şəraiti bu hədiyyələri uzun müddət saxlamağa imkan verir.

Hər bir ölkə özünəməxsus ab-hava ilə yeni ili qarşılayır. Hər yeni il gələcəyə açılan yoldur. Bayram özü ilə yeni arzular, yeni ümidlər gətirir. Qoy 2022-ci il hər bir insanın həyatında ən uğurlu illərdən biri olsun. Bütün insanları, xüsusilə də, dünya azərbaycanlılarını bayram münasibəti ilə təbrik edir, səmamızın açıq, ölkəmizin ruzili-bərəkətli, əmin-amanlıq şəraitdə olmasını arzulayıraq. Yeni iliniz mübarək!

*Nəzakət ƏLƏDDİNQIZI*



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

*"Bayden administrasiyasının çox az vaxtı qalıb. Və bu "uşaqlar" sonda "hoqqalar" və "hiylələr" üzrə"son akkordlar"ını verirlər"*

# Mixail Belyayev: "2025-ci ildə Bakı ilə İrəvan arasında sülh sazişinin imzalanması perspektivləri yüksəkdir"



Tanınmış rusiyalı politoloq Mixail Belyayev "Moskva-Baku" portalına müsahibəsində 2025-ci ildə Bakı ilə İrəvan arasında sülh sazişinin imzalanması perspektivlərini və regionda yaranmış mövcud situasiyanı şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.

**- Mixail Kimoviç Ermənistanın baş nazirinin Ermənistan-Azərbaycan nizamlanması ilə bağlı son bəyanatlarına əsaslansaq, 2025-ci ildə Bakı ilə İrəvan arasında sülh müqaviləsinin imzalanması şansı daha böyükdürmü?**

- Mən belə düşünürəm. Görünür, Ermənistanın baş naziri reallıqdan daha ayıq şəkildə xəbərdar olub. O, Qərbin Ermənistan üçün "cənnət bağları" salmağa başlayacağını düşünürdü. Amma məlum oldu ki, gələn il "cənnət bağları" ilə respublika üçün problem yarana bilər.



Görünür, bu baxımdan Nikol Paşinyan da anlamağa başlayıb ki, Ermənistan hələ də Rusiyasız heç nə edə bilməz.

Təbii ki, bir ölkə özünü Qərbə yönəldə bilər, buna heç kim qadağa qoymur, lakin əgər onun Rusiya ilə ənənəvi qonşuluq, iqtisadi, siyasi əlaqələri varsa, o zaman onun zorla Qərbə doğru sürüklənməsi göz qabağındadır. Ermənistanın problemi göründüyü kimi asan və sadə deyil. Paşinyan isə şüuraltı olaraq bunu anlayır. O, başa düşür ki, Rusiya ilə münasibətləri pozarsa, bu, Ermənistan üçün ciddi problemlərlə nəticələnəcək, Ermənistan sadəcə olaraq bütün sosial-iqtisadi nəticələri ilə müflis dövlətə çevriləcək.

Aydındır ki, Qərb Ermənistandan çox möhkəm yapışmaq və onun vasitəsilə Cənubi Qafqazda anti-Rusiya siyasəti yürütmək istəyir. Amma Paşinyan, təcrübənin göstərdiyi kimi, ümumiyyətlə, hər zaman, lazım gələrsə, vəziyyət tələb edərsə, Rusiya Federasiyası ilə münasibətlərin yaxşılaşdırılmasına "yellənməyə" hazırdır.

Ermənistan başa düşməlidir ki, Rusiya və Azərbaycanla münasibətlərdə kompromislər əldə olunarsa, o, Qərblə strateji qarşılıqlı fəaliyyətdən xeyli çox qazanc alacaq. Rusiya ilə əməkdaşlıqda Ermənistanın mövcudluğu daha etibarlı və davamlı olacaq, bu, respublikada firavan sosial-iqtisadi ab-havanın açarıdır. Ermənistanda müsbət, sabit sosial-iqtisadi ab-hava yalnız Rusiya ilə sıx qarşılıqlı əlaqə yolu ilə əldə edilə bilər.

Bir az unutduğumuz belə yaxşı birləşməni "dinc birgəyaşayış" kimi xatırlayıram. Bu, Ermənistanla Rusiya, Ermənistanla Azərbaycan, həmçinin, deyərdim ki, Rusiya ilə ABŞ arasında münasibətlərə aiddir. 2025-ci ildə dünyada bir sira məsələlər Donald Tramp Amerikada hakimiyyətə gələndə ABŞ-ın xarici siyasətindən asılı olacaq. Onun ekssentriklikləri və müəyyən qəribəlikləri haqqında nə desələr də, Tramp hələ də praqmatistdir. Ayıq düşünən insandır. Onsuz da o, fikirləşir ki, ABŞ niyə Ukraynanı dəstəkləmək üçün bu qədər pul verir, görəsən, ABŞ niyə münaqişələrə bu qədər pul xərcləyir?!

Hesab edirəm ki, bu ümumi fonda Ermənistan və Azərbaycanın irəliyə doğru qəti addım atması və nəhayət, sülh sazişinin imzalanması şansı var.

**-ABŞ-dan Azərbaycana qarşı davam edən tənqidlər barədə nə deyə bilərsiniz?**

- Bayden administrasiyasının çox az vaxtı qalıb. Və bu "uşaqlar" sonda "hoqqalar" və "hiylələr" üzrə"son akkordlar"ını verirlər. Bunda təəccüblü heç nə yoxdur. Axı məlumdur ki, Azərbaycanla ABŞ arasında münasibətlər son vaxtlar xeyli pisləşib. Azərbaycan Respublikasının hakimiyyəti Vaşinqtonu ikili standartlara, regiona və ölkələrin daxili siyasətinə müdaxilə cəhdlərinə görə fəal şəkildə tənqid edir. Vaşinqton isə buna cavab olaraq Azərbaycan əleyhinə kampaniyasını davam etdirir.

***Tərcümə - Elçin Bayramlı***

# "Nar"ın dəstəyi ilə uşaq hüquqlarına həsr olunmuş debat forum keçirildi







Regionlarda sosial məsuliyyət təşəbbüsləri ilə tanınan "Nar"ın "Regional İnkişaf" İctimai Birliyi (RİİB) ilə birgə həyata keçirdiyi Ümumdünya Uşaq Hüquqları Gününə həsr edilmiş layihə sona çatıb. Mobil operator layihənin yekunu olaraq, "Rəqəmsal təhlükəsizlik və uşaq hüquqlarının qorunması" mövzusunda genişmiqyaslı debat forum keçirilməsinə dəstək olub. Layihənin məqsədi rəqəmsal dövrdə uşaqların hüquqlarının qorunması məsələlərinə diqqət çəkmək və valideynləri bu sahədə maarifləndirməkdir.

Forumdaşəxsi məlumatların qorunması, internetdə təhlükəsiz olmağın metodları və digər mövcud problemlər mövzusunda mütəxəssislərin iştirakı ilə valideynlər, uşaqlar və rəhbər şəxslər arasında fikir mübadiləsi aparılıb. Panel müzakirələrdə valideynlər suallarını rəhbər şəxslərə ünvanlayaraq çətinlikləri və həll yollarını müzakirə edib, uşaqlar isə kiberbullinq, onlayn oyunların təhlükələri kimi mövzulara aid təqdim olunan keyslərə fikir bildiriblər. Bu cür interaktiv panel diskussiyalar üç tərəf arasında açıq ünsiyyəti qoruyaraq birgə həll yollarını stimullaşdırıb.

Debat forumda çıxış edən "Nar"ın İctimaiyyətlə əlaqələr və korporativ ünsiyyət departamentinin direktoru Hökümə Kərimova bildirib: "Rəqəmsal dövrdə uşaqların hüquqlarının qorunması hər birimizin üzərinə düşən bir məsuliyyətdir. "Nar" olaraq, hədəfimiz uşaqların təhlükəsizliyini təmin etməklə yanaşı, valideynlərə və cəmiyyətə bu mühüm məsələlərdə dəstək olmaq və hər bir uşağın daha təhlükəsiz rəqəmsal gələcəyini təmin etməkdir".

Sərfəliliklə yanaşı, sosial məsuliyyət prinsiplərini fəaliyyətinin ayrılmaz hissəsi hesab edən "Nar" bu layihəyə dəstək göstərərək uşaqların hüquqlarının qorunmasına, valideynlərin maarifləndirilməsinə və təhlükəsiz rəqəmsal mühitin yaradılmasına töhfə verir. Mobil operator sosial layihələr çərçivəsində regionlarda maarifləndirmə fəaliyyətlərini davam etdirməyi və cəmiyyətin inkişafına yönəlmiş təşəbbüsləri dəstəkləməyi uzunmüddətli prioritet kimi görür.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# "Süni intellekt heç bir iş yerlərini bağlamayacaq"



***Süni intellektin insan hisslərinə təsiri müasir dövrdə getdikcə daha çox müzakirə olunan bir mövzudur. Texnologiyanın inkişafı ilə yalnız məlumatların təhlili və avtomatlaşdırılmış proseslərdə deyil, həm də insanlarla emosional əlaqələr qurmaqda istifadə olunur. Bu təsirlər həm müsbət, həm də mənfi ola bilər. Lakin bu, müəyyən riskləri də özündə birləşdirir. İnsanlar süni əlaqələrə həddindən artıq bağlana bilər və ya real insani münasibətlərin əhəmiyyətini azaltmaq təhlükəsi ilə üzləşə bilər. Bəs bu mövzuda ekspertlərimiz hansı fikirdədir?***

İnformasiya texnologiyaları üzrə ekspert Emin Qasımov SİA-ya açıqlamasında məsələyə bu cür münasibət bildirib: "Süni intellekt termini bir çox insanları qorxudur, lakin bu bir instrumentdir. O instrumenti nə ilə bəsləsəz, yedizdirsəz yaxud hansı materialı ona təqdim etsəz həmin işi bacaracaq. Bu kimi işlərə mahnı bəstələmək, şeir və kitab yazmaq və s. aiddir. Eləcə də insan hisslərini və duyğularını idarə edə bilər. Yəni o insan hansı vaxtda neqativ və pozitiv qərar verə biləcəyini öyrənir və buna görə də onların yerinə qərar verə bilər. Yenə deyirəm süni intellekt sadəcə bir instrumentdir, özünüzü onunla qorxutmağa ehtiyac yoxdur. Ondan düzgün istifadə etmək lazımdır, süni intellekt heç bir iş yerlərini bağlamayacaq, həmçinin heç kimi işsiz saxlamayacaq. Sadəcə o insanların əlində olan instrumentdir.

Süni intellekti bir kalkulyator bilin. Kalkulyator icad olunandan sonra riyaziyyat müəllimləri qorxu içinə düşdülərki, artıq biz işsiz qalacıq, hər kəs onun sayəsində hesab işlərini edəcək, müəllimə yaxud buxalterə ehtiyac yoxdur, amma zaman göstərdi ki, kalkulyator insanların əlində sadəcə bir instrument oldu. Eləcə də süni intellekt istər yazıçının əlində, istərsə də jurnalistin əlində prosesi daha tezləşdirməyə yarayan, keyfiyyətli məhsul çıxarmağa kömək edən instrumentdir. Məsələn, süni intellekt mühəndisin əlində olsa, ona hər hansısa bir problem yarananda köməklik edəcək və onun həll yollarını göstərəcək. Mühəndis özü qərar verəcək ki, hansı yolla problemi düzəltmək lazımdır. Süni intellekt insanların əlində bir instrument olmalıdır. İnsanlar süni intellektin vəzifələri dəyişməyindən, peşələri ləğv etməyindən qorxurlar, ancaq insan faktoru hər zaman olmalıdır.

Həmçinin süni intellektə empatiyanı öyrətmək olar, yəni onu nə ilə yedizdirəcəksizsə həmin işidə bacaracaq. Süni intellektə mərhəməti, qəddarlığı yəni istənilən hissi öyrətmək olar. Onda zamanla insani hisslər ola da bilər, olmayada bilər. Artıq bir çox



*Ekspertdən açıqlama*

ölkələr süni intellektə əsasən müəyyən qayda və qanunlar düzəldəcəklər, lakin hələki bu yoxdur deyə insanlar qorxu içərisindədirlər. Hətta İtaliyada bu qaydalar çıxmışdı ki, süni intellekt müəyyən proseslərdə və ixtisaslarda iştirakı qadağandır. Eyni zamanda Amerikada redaktorlar ayağa qalxmışdı və nəticədə süni intellektin həmin sahədə iştirakı qadağan edildi. Biraz səbr etmək lazımdır, ölkələr bu barədə bir çox qərarlar çıxaracaq".

***Xeyrənsə Piriyeva***

# "Napoli" Ronaldonun həmyerlisinə qapını göstərdi



İtaliyanın "Napoli" klubu daha bir futbolçu ilə yolları ayırmaq qərarına gəlib. Bu, portuqaliyalı Mario Ruidir. 33 yaşlı portuqaliyalı müdafiəçi ilə müqaviləyə qarşılıqlı şəkildə xitam veriləcək. Futbolçu azad agent kimi başqa komandaya qoşulmağı düşünür.


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343**
**7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898**
**8. Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Hamiləlik diabeti NƏDİR?

HƏKİM DANIŞDI

***"Əvvəla qeyd edim ki, hamiləlik diabeti daha çox endokrinoloji mövzudur. Amma ümumilikdə məlumat versəm, hamiləlik diabeti odur ki, adi vaxtda qadın diabet xəstəsi deyil". Bu sözləri SİA-ya açıqlamasında cərrah, mama-ginekoloq Ləman Əliyeva deyib. Onun sözlərinə görə, yəni bu qadın sağlamlıqda diabet xəstəsi deyil: "Sadəcə hamiləlik dönəmində meydana çıxan bir diabetdir. Əslində, bunun hamiləlik bitəndən sonra da qadın üçün heç bir ziyanı olmur".***



Ləman Əliyeva sözlərinə belə davam edib: "Yəni, hamiləlik diabetinin qadının gələcək həyatı üçün heç bir ziyanı olmur. Amma və lakin qadın müalicəsiz qalarsa, uşağın inkişafdan qalmasına, bətndaxili ölümünə səbəb ola bilər. Ona görə də hamiləlik dibaetini hamiləliyin müəyyən həftələrində nəzarətdə saxlamaq lazımdır. Bəzən yüngül formalı halda dieta ilə, bəzən də ehtiyac olarsa, insulinlə, kimyəvi dərmanlarla hamiləliyin sonuna qədər nəzarətdə saxlanılır. Bu zaman heç bir problem yaşanmır".

***Ayşən Vəli***


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 2700**